16 avqust 2019-cu il
№30 (8845)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Müəllimlərin işə qəbulu üzrə müsabiqənin son mərhələsi** ⇨səh.3

**UNEC beynəlxalq reytinqdə daha bir uğura imza atıb** ⇨səh.4

**Elektronlaşan qəbul** ⇨səh.5

**Müəllim-şagird-valideyn münasibətlərinin mərkəzində** ⇨səh.8

# Təhsildə əlçatanlıq təmin olunur

## Təhsil Nazirliyinin kollegiyasının qərarı tələbələrə təhsil haqlarını yarımilliklər üzrə ödəmək imkanı verəcək



Ali məktəblərə qəbul olunan və ödənişli təhsil alan tələbələr təhsil haqlarını yarımilliklər üzrə ödəyə biləcək.

Tələbələri sevindirəcək bu qərar Təhsil Nazirliyinin kollegiyasında verilib. Kollegiyanın qərarına əsasən, ali təhsil müəssisələrinin rəhbərlərinə tapşırılıb ki, ödənişli təhsil alan tələbələrin təhsil haqlarını təhsil aldığı müddətdə yarımilliklər üzrə ödənilməsinə şərait yaratsınlar.

### Universitetlər belə bir qərara hazırdırmı?

Məsələ burasındadır ki, dünyada da qəbul olunmuş mövcud qaydalara görə, birinci kurs da daxil olmaqla, təhsilalanların hər semestr üçün tədris planı müəyyənləşdirilərkən onların istəyi nəzərə alınmalıdır. Neçə fənn götürdüyünə və ödəyəcəyi pula tələbə özü qərar verməlidir. Ancaq buna əməl edib-etməməyə universitetlər qərar verdiyindən hər il təhsil haqqını ödəyə bilmədiyi üçün xeyli gənc təhsildən kənarda qalırdı. Ancaq müasir dünyanın qəbul etdiyi qaydalardan xəbərdar olanlar, bunula razılaşanlar və artıq tətbiq edənlər də vardı.

⇨Ardı səh.3

# 31-ci Beynəlxalq İnformatika Olimpiadasına yekun vuruldu

"Birinci gün yarış gərgin şəraitdə keçdi, rəqabət güclü idi. Ancaq özümü toplayıb ən yüksək balı qazandım. Yarışın ikinci günündə də liderliyimi qoruyub saxlamağa nail oldum".

Bunu ötən həftə Bakıda keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasının (IOI) qızıl mükafatçısı Benjamin Qi deyib. ABŞ-ın 17 yaşlı çinli təmsilçisi builki olimpiadada öz rekordunu təzələyib: "IOI-də 2 ildir ki, qızıl medal qazanıram. Bu dəfə 547.09 balla birinci yerə çıxdım. Rekordumu təzələdiyim üçün özümü xoşbəxt hiss edirəm".

Beynəlxalq İnformatika Olimpiadasının əhəmiyyətindən danışan Amerika məktəblisinin sözlərinə görə, bu müsabiqələr ona alqoritmlərlə bağlı problemlərin həlli yollarını tapmaqda, proqramlaşdırma sahəsində əldə etdiyi biliyi tətbiq etməyə imkan yaradır: "Bu sahəni öyrənmək istəyən şagirdlərə məsləhət görürəm ki, yaratdığım veb-səhifəyə baş çəksinlər. Həmin səhifədə indiyə qədər öyrəndiklərimi və informatika olimpiadalarındakı təcrübəmi bölüşmüşəm".

Beləliklə, ölkəmizdə ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında Benjamin Qinin təmsil etdiyi ABŞ da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət nümayəndə heyətləri iştirak etdilər. Olimpiada iştirakçılarının 28-i qızıl, 54-ü gümüş, 81-i bürünc medala layiq görüldü. Onlar avqustun 10-da Heydər Əliyev Mərkəzində keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasının bağlanış mərasimində mükafatlandırıldılar.

### Medallar sahiblərinə təqdim edildi

Bakı Konqres Mərkəzində düzənlənən açılış mərasimi ilə start götürən 31-ci Beynəlxalq İnformatika Olimpiadası elə bu Mərkəzdə də yekunlaşdı. Təhsil naziri, "IOI 2019"un sədri Ceyhun Bayramov olimpiadanın başa çatması münasibətilə iştirakçıları təbrik etdi. Dünyanın ayrı-ayrı yerlərindən gələn məktəblilərdə Azərbaycan, ölkəmizin tarixi yerləri, o cümlədən mədəniyyəti və yeməkləri ilə bağlı xoş təəssürat formalaşdığına inam ifadə edən nazir yarışın yüksək səviyyədə təşkil olunmasında payı olanları da unutmayaraq hər kəsə təşəkkür etdi.

Təhsil naziri Azərbaycanda informatika fənninə, ümumiyyətlə, informasiya texnologiyalarına göstərilən münasibətə də toxundu. Azərbaycan hökumətinin bu sahənin inkişafında xüsusi marağı olduğunu diqqətə çatdıraraq, atılan addımların da bu hədəfə yönəldiyini vurğuladı.

⇨Ardı səh.2

# STEM təhsildə PhD-lərin sayı artır

Məlumdur ki, təhsil iqtisadi inkişafın açarıdır. Son illərin müşahidələri göstərir ki, innovasiyalara əsaslanan ali təhsil, xüsusən də fəlsəfə doktoru hazırlığı (PhD) olmadan MP3, GPS kimi müasir texnologiyalar heç vaxt mümkün olmazdı. Ölkələr milli ali təhsil sistemlərinə sərmayə qoyur və əvvəlki illərdən fərqli olaraq daha çox insan doktorluq elmi dərəcəsi alır. Ancaq sual belədir: hansı ölkədə daha çox doktorant var?

### ABŞ bütün ölkələri geridə qoyub

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hazırladığı məruzəyə əsasən, ABŞ-da Almaniya və onun yaxın rəqiblərindən 2 dəfə artıq fəlsəfə doktoru var. 2014-cü ildə ABŞ-da 67449 şəxs fəlsəfə doktoru elmi dərəcəsini alıb. Almaniyada bu rəqəm 28147 nəfər təşkil edir. Üçüncü sırada Böyük Britaniya gəlir. Böyük Britaniya sadəcə 25020 PhD hazırlaya bilib. Dördüncü sırada 24300 nəfərlə Hindistan yerləşib. Yaponiya 16039 nəfərlə siyahıda 5-ci yerdə qərarlaşıb. Yaponiya ABŞ-da hazırlanan PhD məzunlarının dörddə birinə malikdir.

⇨Ardı səh.5

# Süni intellekt və etika problemləri

## Robot texnologiyasının xeyirləri ilə yanaşı, mümkün təhlükələr də nəzarətdə saxlanılmalıdır

Bir neçə il bundan əvvəl müasir dünyamızın İlon Mask, Stiven Hokinq kimi ən ağıllı adamlarından ibarət bir qrup alim süni intellektlə bağlı araşdırmalar zamanı nəzərə alınması vacib olan 23 prinsipdən ibarət siyahı imzalayıblar. Məqsəd rəqəmsal texnologiyalarla əlaqəli kəşflərdə prosesin təhlükəsizlik, məhsuldarlıq amilləri ilə yanaşı, ən əsası mənəvi, etik tərəflərinə də riayət olunmaqdan ibarətdir.

Niyə əsasən mənəvi? Fikir vermisinizsə, getdikcə yüksək texnologiyalarla işləyən daha çox elm adamı, filosof, dizayner və mühəndislər (Gerd Leonqard, Yuval Noy Harari, Mitio Kaku, Kris Skinner və s.) süni intellektin insan tarixinin sonu ola biləcəyinə dair həyəcan təbili çalırlar. Elə həmin Hokinq ömrünün son illərində deyirdi ki, süni intellekt və ya robotlaşma homo sapiensin sonunu yaxınlaşdırır. Di gəl ki, heç kim bu sahədəki araşdırma və kəşflərinə ara vermək niyyətində də deyil. İndi tez-tez Hollivudun ən parlaq məhsullarından olan "Terminator" filmindən misallar gətirməyə başlayıblar. Yəni, qabaqcıl texnologiyalar insan üçün yeni üfüqlər açmaqla yanaşı, həm də təhlükəli, özü də çox təhlükəli ola bilər.

### Texnologiya kabusu

Sözügedən siyahı 2017-ci ildə "Beneficial Al" konfransında tərtib olunub və imzalanıb. Robot texnologiyası, fizika, fəlsəfə, iqtisadiyyat və digər sahələri təmsil edən elm adamlarını maraqlandıran əsas problemlər süni intellektin təhlükəsizlik, iqtisadiyyat və insan məşğulluğu kimi proseslərə təsir etməsi ilə bağlıdır. Bu barədə çox yazmışıq: 2030-cu ilədək ABŞ-da hazırda işlək olan peşələrin təqribən 47%-i öz aktuallığını itirəcək. Ona görə yox ki, kiməsə lazım olmayacaq. Sadəcə bu sahələrdə insanı robotlar əvəzləyəcək, yaxud peşələrin bir qismi robot texnologiyasının kütləvi tətbiqi nəticəsində səhnədən sıxışdırılıb çıxarılacaq. Yuval Noy Harari özünün sonuncu - "XXI əsr üçün 21 dərs" kitabında problemə tarixi nöqteyi-nəzərdən yanaşaraq yazır: "Ola bilsin ki, XXI əsrdə populist inqilablar əvvəlkitək insanları istismar edən iqtisadi elitalara deyil, insan əməyinə ehtiyac duymayan iqtisadi elitalara qarşı yönələcək". Yəni, cəmi 15-20 il bundan qabaq çox işləməyindən, az istirahət etməyindən şikayətlənən, daha çox istirahət günləri tələb edən insan bir azdan işsiz qalmağından danışacaq.

⇨Ardı səh.5



# Süni intellekt tələbələri qiymətləndirəcək

## Pis oxuyanlar universitetdən kənarlaşdırılacaq

Səh.4

# Özünüzə peşə seçin

Peşə təhsili müəssisələrində oxumaq istəyən 7000-dən çox şəxsin müraciəti qeydə alınıb. Müraciət edənlər 145 ixtisas arasından 5 ixtisas seçirlər. İndiyədək seçilən ixtisasların tərkibi fərqlənir. Aqroservis və ya heyvandarlıq mütəxəssisi olmağı hədəfləyənlər bu günlərdə kifayət qədər çoxdur. Ancaq aşpaz və dərzi 2019-cu ilin də ən çox seçilən peşələri siyahısındadır.

Bu statistika avqustun 5-dən başlayan 2019-2020-ci tədris ili üzrə dövlət peşə təhsili müəssisələrinə elektron qaydada sənəd qəbulu prosesinin indiyədək olan nəticələrinə əsaslanır.

### Qəbul prosesində rahatlıq təmin edilib

Yeri gəlmişkən qeyd edək ki, qəbul prosesi artıq dördüncü ildir ki, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") arasındakı əməkdaşlıq çərçivəsində həyata keçirilir. Vətəndaşlar harada qeydiyyatda olmağından, harada yaşamağından asılı olmayaraq, istənilən "ASAN xidmət" mərkəzinə yaxınlaşaraq ixtisas seçib peşə təhsili ala bilər. Bu prosesdə vətəndaşların rahatlığını təmin etmək üçün bütün tədbirlər görülüb. Məsələn, "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə vətəndaşlara müvafiq peşə təhsili müəssisələrində elektron qaydada qeydiyyat üçün şərait yaradılıb.

⇨Ardı səh.2

# 31-ci Beynəlxalq İnformatika Olimpiadasına yekun vuruldu

## "IOI-2019"un ən yüksək nəticə göstərən mükafatçısı ABŞ məktəblisi oldu









⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Təhsil sahəsində yeni innovasiyaların, informasiya-kommunikasiya texnologiyalarının geniş şəkildə tətbiq olunduğunu dedi.

"IOI 2019"un Azərbaycanda informasiya texnologiyaları sahəsinin inkişafına töhfə verəcəyinə inamını ifadə etdi.

Olimpiada iştirakçılarına uğur arzulayan Təhsil naziri Ceyhun Bayramov olimpiadada ən yüksək nəticə göstərən iştirakçı, ABŞ komandasının üzvü Benjamin Qiyə qızıl medalla yanaşı, xüsusi mükafat da təqdim etdi.

### "IOI 2020" Sinqapurda keçiriləcək

"IOI" prezidenti Qreq Li beynəlxalq olimpiadanın bağlanış bəyannaməsini diqqətə çatdırandan sonra olimpiadanın keçiriləcəyi növbəti ölkənin adı məlum oldu. Növbəti il, yəni 2020-ci il iyulun 19-26-da yarış Sinqapurda keçiriləcək. Təhsil nazirinin müavini Firudin Qurbanov və "IOI 2019"un fəxri həmsədri, ADA Universitetinin rektoru Hafiz Paşayev Beynəlxalq İnformatika Olimpiadasının bayrağını Sinqapur Milli Universitetinin professoru Tan Sun Tekə təqdim etdilər.

### "15-16 yaşlı şagirdlərimizin 18-19 yaşlı rəqiblərlə mübarizəsi asan olmayacaqdı"

Beləliklə, Bakıda keçirilən Beynəlxalq İnformatika Olimpiadası ilə 2018-2019-cu tədris ili üçün Azərbaycan məktəblilərinin də iştirak etdiyi beynəlxalq olimpiadalar yekunlaşdı. Son yarışda Azərbaycan məktəbliləri medal qazana bilmədi. Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayevin sözlərinə görə, bu nəticəyə baxmayaraq, yarışda məktəblilərimizin iştirakı qənaətbəxşdir: "162 nəfərin medal aldığı bu olimpiadada şagirdlərimiz 177 və 179-cu yerdə qərarlaşdılar. 6 sualın həlli üçün verilən 10 saat diliminin təxminən 8 saatı ərzində şagirdlərimiz medalçılar intervalına düşə bildi, lakin sonda həmin intervalda qərarlaşa bilmədilər. Ölkəmizdə keçirilən bu mötəbər yarışda medalçılar siyahısına düşmək, əlbəttə ki, hər birimizin arzusu və hədəfi idi. Lakin IX-X sinifdə oxuyan 15-16 yaşlı şagirdlərimizin, əsasən 18-19 yaşlı rəqibləri ilə mübarizəsi gözlənildiyi kimi, asan olmadı. Əminəm ki, çox az fərqlə medalçılar siyahısına düşməyən şagirdlərimiz gələn il keçiriləcək olimpiadalarda daha yaxşı çıxış edəcəklər. Həm onlar, həm müəllimlərimiz əksiklikləri müəyyən edib hazırkı səviyyənin artırılması üçün çalışacaqlar".

Ölkə məktəblilərinin tədris ili ərzində böyük nailiyyətlərə imza atdıqlarını vurğulayan F.Qarayev yeni tədris ilindən daha böyük gözləntiləri olduğunu da əlavə etdi: "Düşünürəm ki, tədris ili boyunca iştirak etdiyimiz bütün beynəlxalq yarışlarda şagirdlərimizin nəticələri olduqca yaxşı olub. Məktəblilərimiz riyaziyyat fənni üzrə 21 medal - 10 gümüş və 11 bürünc medal gətiriblər. Kimya fənni üzrə 1 qızıl, 1 gümüş və 5 bürünc medal olmaqla 7 medal, biologiya fənni üzrə 2 bürünc medal qazanıblar. Fizika fənni üzrə 3 bürünc medal, informatika fənni üzrə 2 gümüş, 1 bürünc medal olmaqla cəmi 3 medal əldə olunub. Ümumilikdə şagirdlərimiz beynəlxalq fənn olimpiadalarından ölkəmizə 36 medal gətiriblər. Yeni tədris ilində hər bir fənn üzrə nəticələrin daha yaxşı olacağına və medal əyarlarının artacağına şübhə yoxdur. Odur ki, gələcək nailiyyətlər üçün çox ümidliyik".

# Özünüzə peşə seçin

## 7000-dən artıq şəxs peşə məktəblərinə üz tutdu

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI



Xatırladaq ki, peşə təhsili müəssisələrinə qəbul şəhadətnamə və ya attestat əsasında həyata keçirilir. Müsabiqə müvafiq fənlərin orta balı nəzərə alınmaqla aparılır.

### Yeni ixtisaslar yeni mərkəzdə tədris olunacaq

Qəbul prosesinə ölkəmizdəki bütün peşə təhsil müəssisələrinin həm ödənişli, həm də dövlət sifarişi əsasında hazırlıq aparılan ixtisasları daxil edilib. Ümumilikdə 145 ixtisasın 23-ü yenidir. Yeni ixtisaslar, əsasən sənaye sahəsi üzrədir.

Həmin sahə üzrə kadrlar Koreya standartları əsasında yeni yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Peşə Təhsil Mərkəzində hazırlanacaq. Mərkəzdə "Torna və frezer dəzgahların operatoru", "Avtomobil diaqnostikası və təmiri ustası", "Sənayedə quraşdırma işləri üzrə usta", "Elektronika ustası", "Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru", "İnşaat ustası", "Veb dizayner və proqram təminatçısı", "Avtomatika üzrə usta" ixtisasları üzrə kadr hazırlığı təşkil edilir.

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin bazasında yaradılan bu yeni Peşə Təhsil Mərkəzinə aparılan elektron sənəd qəbulu göstərir ki, məktəbin reytinqi kifayət qədər yüksəkdir. Müraciətlər daha çox "Veb dizayner və proqram təminatçısı" və "Avtomobil diaqnostikası və təmiri ustası" ixtisasları üzrədir. Ancaq "Torna və frezer dəzgahların operatoru", "Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru", "Elektronika ustası" ixtisaslarına da seçim üstünlüyü verilib.

Qeyd edək ki, bu tədris ilindən fəaliyyətə başlayacaq mərkəz Azərbaycan və Koreya hökumətləri arasında razılaşmaya uyğun olaraq, Koreya təhsil standartları əsasında yaradılmış ilk pilot təhsil müəssisəsidir. Sözügedən təhsil müəssisəsi mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma istiqamətləri üzrə ən müasir avadanlıq, təlim və tədris vəsaitləri ilə təchiz olunub. Tədris prosesi üçün nəzərdə tutulan kurikulumlar koreyalı ekspertlər və özəl sektor nümayəndələrinin iştirakı ilə hazırlanıb.

Ən müasir maddi-texniki baza ilə təchiz edilmiş mərkəzdə adıçəkilən 8 fərqli ixtisas üzrə 1 illik proqramlarda təhsil almaq mümkündür.

### Peşə məktəblərinə qəbul olunmaq üçün son bir neçə gün

Bakı Peşə Təhsil Mərkəzi də daxil olmaqla, ölkəmizdəki bütün peşə məktəbləri üzrə ərizə qəbulu avqustun 20-dək davam edəcək. Dəyişən dünyamızda peşə seçiminin önəmini nəzərə alaraq, son bir neçə günlük şansdan yararlanmağınız tövsiyə olunur. Necə deyərlər, özünüzə peşə seçin ki, işsiz qalmayasınız.

# Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbələrin qeydiyyata alınması başlanıb

Avqustun 15-dən Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) I tədris ilinə qəbul olunmuş tələbələrin qeydiyyata alınması başlanıb.

ADPU-dan AZƏRTAC-a bildirilib ki, rektor Cəfər Cəfərov 2019-2020-ci tədris ilində universitetə qəbul olunmuş tələbələrin qeydiyyatının aparılması və sənədlərinin qəbul edilməsi haqqında əmr imzalayıb. Ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunmuş tələbələrin qeydiyyatının mövcud qaydalara uyğun təşkili və keçirilməsi məqsədilə universitetin 8 fakültəsinin - Filologiya, Riyaziyyat, Tarix və coğrafiya, Kimya və biologiya, Fizika, İbtidai təhsil, Məktəbəqədər təhsil, İncəsənət və fiziki tərbiyə fakültələrinin dekanlarından, dekan müavinlərindən və əməkdaşlarından ibarət sənəd qəbulu komissiyası yaradılıb. Komissiyanın məsul şəxsi Filologiya fakültəsinin Ədəbiyyat kafedrasının müdiri, dosent Razim Məmmədovdur.

Sənəd qəbulu komissiyasına universitetə qəbul olunmuş tələbələrin qeydiyyatı zamanı tələb ediləcək sənədlərin müvafiq qaydada toplanıb işlənməsi tapşırılıb. Komissiya universitetə qəbul olunmuş I tədris ili tələbələrinin qanun çərçivəsində qeydiyyata alınmalarına və sənədləşmənin düzgün aparılmasına nəzarət edir. Komissiya ADPU-nun Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 68 ünvanında yerləşən I nömrəli tədris binasında şənbə və bazar günləri istisna olmaqla, hər gün saat 9-dan 17-dək fəaliyyət göstərir. Tələbələrin qeydiyyatı zamanı növbəlilik prinsipinin, qayda-qanunun və nizam-intizamın qorunması diqqət mərkəzində saxlanılır. Qeydiyyat zamanı universitetlə tələbələr arasında imzalanan ikitərəfli müqavilənin məzmun və mahiyyəti, şərtləri onlara aydın izah edilir. Bu il ADPU-ya ali təhsilin bakalavriat səviyyəsində 22 ixtisas üzrə 2420 nəfər plan yeri ayrılıb.

Təhsil Nazirliyinin kollegiyasının məlum qərarına əsasən, ödənişli əsaslarla universitetə qəbul olunan, lakin maddi cəhətdən imkansız tələbələrə təhsil haqlarını yarımillik üzrə ödəmək üçün lazımi şərait yaradılır. ADPU-nun 5 filialında – Şəki, Şamaxı, Cəlilabad, Quba və Ağcabədi filiallarında, həmçinin ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində yaradılmış sənəd qəbulu komissiyaları da öz işlərinin öhdəsindən layiqincə gəlirlər.

Qeyd edək ki, ADPU-da tələbələrin qeydiyyata alınması zamanı bir yenilik də tətbiq edilir. Belə ki, tələbələr arasında sorğu keçirilir. Həmin sorğuda tələbələrin anket göstəriciləri, ADPU haqqında məlumatları, bu ali məktəbi seçmələrinin səbəbi, universitet haqqında ilk təəssüratları və digər vacib məqamlar öz əksini tapıb.

# 2019-2020-ci dərs ilində dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının təşkili barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında” 2016-cı il 11 iyul tarixli 271 nömrəli qərarının, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın icrasına dair Təhsil Nazirliyinin 2018-2020-ci illər üçün Tədbirlər Planının 3.1.3.1-ci bəndinin yerinə yetirilməsini təmin etmək məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələrinə tapşırılsın ki:

1.1. Aidiyyəti yerli təşkilatlarla birgə 2019-2020-ci dərs ilində məktəbəhazırlıq qruplarına cəlb olunacaq 2014-cü ildə anadan olmuş uşaqların sayının dəqiqləşdirilməsi, müəllimlərin və ərazilər üzrə məktəbəhazırlıq təhsili təşkil ediləcək məktəblərin müəyyənləşdirilməsi üçün müvafiq tədbirlər görsünlər;

1.2. Məktəbəhazırlıq qruplarının müəllimlərinin, əsasən, diaqnostik qiymətləndirmədə yüksək nəticə göstərmiş və həmin dərs ilində IV siniflərlə işləyəcək ibtidai sinif müəllimləri arasından seçilməsini nəzarətdə saxlasınlar;

1.3. Məktəbəhazırlıq qruplarının müəyyən olunmuş qaydalar əsasında və Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 271 nömrəli qərarına uyğun olaraq şəhər və rayonlar üzrə 2019-2020-ci dərs ilində məktəbəhazırlığa cəlb olunacaq uşaqların sayı proqnozu daxilində komplektləşdirilməsini təmin etsinlər;

1.4. Məktəbəhazırlıq qrupları yaradılacaq ümumtəhsil məktəblərində lazımi təlim şəraitinin təmin olunması istiqamətində tədbirlər həyata keçirsinlər;

1.5. Məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun elektron sistem vasitəsilə həyata keçirildiyini nəzərə alaraq, tabeliklərindəki ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına uşaqların qeydiyyatının *mektebeqebul.edu.az* sistemində aparılmasını təmin etsinlər;

1.6. 2019-cu il oktyabr ayının 25-dək əlavə olunan forma üzrə məlumatı və görülmüş işlər barədə yazılı hesabatı Nazirliyə göndərsinlər.

**2.** 2019-cu il avqustun 26-dan sentyabrın 25-dək məktəbəhazırlıq qruplarına elektron ərizə qəbulu prosesinin ələqələndirilməsi və səmərəli təşkili edilməsi məqsədilə yaradılmış İşçi qrupunun tərkibi təsdiq edilsin (əlavə olunur).

**3.** Məcburi köçkün rayonlarının məktəblərində müvafiq imkan və şərait, kadr potensialı olmadığı, məcburi köçkün ailələrindən olan uşaqların mövcud sayı bu məktəblərdə məktəbəhazırlıq qruplarının təşkilinə əsas vermədiyi hallarda həmin uşaqlar məktəbəhazırlıq təhsilinə ərazi üzrə yerli məktəblərdə cəlb edilsinlər.

**4.** Müvafiq ərazi maliyyə hesablaşma mərkəzləri məktəbəhazırlıq qruplarının mövcud normativlər əsasında müəyyən edilmiş say çərçivəsində təşkilini nəzarətdə saxlasınlar.

**5.** Təhsilin inkişafı proqramları şöbəsi (Emin Əmrullayev), İnsan resursları şöbəsi (Eşqi Bağırov), Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (Vəfa Yaqublu) məktəbəhazırlıq təhsilini aparacaq müəllimlərin yerlərdən alınmış adlı siyahısı əsasında həmin müəllimlər üçün təsdiq olunmuş tədris planı və proqrama uyğun öyrədici təlimlərin avqust-sentyabr aylarında təşkilini təmin etsinlər.

**6.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (Aydın Əhmədov), Təhsil İnstitutu (Emin Əmrullayev), Tədris resursları şöbəsi (Elvin Rüstəmov) 2019-2020-ci dərs ilində məktəbəhazırlıq təhsilinin təşkili üçün tələb olunan tədris resurslarının, malların adı və miqdarı barədə məlumatı Maliyyə şöbəsinə təqdim etsinlər.

**7.** Maliyyə şöbəsi (Rauf Orucov) və Əsaslı Tikinti və Təchizat İdarəsi (Anar Axundov) ayrılmış büdcə vəsaiti çərçivəsində əmrin 6-cı bəndinin icrası üzrə təqdim olunacaq məlumatlar əsasında məktəbəhazırlıq təhsilinin təşkili ilə bağlı tələb olunan tədris resurslarının və digər malların satın alınması və vaxtında ümumi təhsil müəssisələrinə çatdırılması ilə bağlı aidiyyəti tədbirlərin görülməsini təmin etsinlər.

**8.** İnformasiya şöbəsi (Elnur Məmmədov) KİV-lərdə məktəbəhazırlığın təşkili ilə bağlı təbliğat və maarifləndirmə işlərinin həyata keçirilməsini, əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**9.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə edilsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

*9 avqust 2019-cu il*

# Təhsildə əlçatanlıq təmin olunur

## Təhsil Nazirliyinin kollegiyasının qərarı tələbələrə təhsil haqlarını yarımilliklər üzrə ödəmək imkanı verəcək



⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycan Dillər Universitetinin tədris işləri üzrə prorektoru Əfqan Abdullayev ali məktəbə daxil olan şəxslərə “Birinci kursun pulunu ver, sonra sənədlərini qəbul edim” prinsipi ilə yanaşmanı doğru saymır. Bu yanaşmanın universitetdə çoxdan tətbiq edildiyini deyən prorektorun fikrincə, təhsilalan onsuz da bu vəsaiti ödəyəcək: “Bir də ki, insan götürdüyü fənnin pulunu verməlidir. Axı, tələbə universitetə bir il əvvəldən niyə pul ödəməlidir? Bəlkə heç ilin sonunadək təhsil almayacaq, birinci semestrdən sonra çıxıb getmək istəyəcək. Belə faktlar da var ki, birinci kursun ikinci semestrindən xarica çıxıb gedən tələbə ödədiyi təhsil haqqının yarısının geri qaytarılmasını tələb edib. Tələb etməkdə də tamamilə haqlıdır. Çünki oxumadığı fənlərin pulunu ondan əvvəlcədən alıblar. Ümumiyyətlə, qeydiyyat hər semestrdə aparılmalıdır. Tələbə qeydiyyatdan keçərkən həmin semestrdə hansı və neçə fənni oxumaq istədiyini bildirməlidir. Biz bütün birinci kurslara 6 fənn təklif edirik. Ancaq onların hamısı bu fənləri oxumaya da bilər. Tutaq ki, 4 fənn götürüb ancaq onun pulunu ödəmək istəyini bildirər və bu istəyində tam haqlıdır”.

Ə.Abdullayev hesab edir ki, sadəcə təhsil haqqı deyil, hətta günün hansı saatında və neçə saat dərs keçməsinə də təhsilalan qərar verməlidir: “20- 22 yaşında gəncin təhsil haqqını niyə valideynləri ödəməlidir? Gənclər həm işləyib, həm də oxumaq istəyə bilər. Ona görə də tələbənin götürdüyü fənlərin sayını, vaxtını məhz iş saatına uyğunlaşdırmaq istəməsi normal qarşılanmalıdır”.

Ə.Abdullayev bildirib ki, nəinki təhsilalanların, elə təhsilverənlərin də tədris planı illik tərtib edilməməlidir: “Təhsil alan ikinci yarımildən başqa təhsil müəssisəsinə keçmək istəyə bilər. Eyni zamanda, hər hansı fənni tədris edən müəllimdən imtina edər. Ona görə də, nəinki tələbənin, elə müəllimlərin də tədris planı yarımillik tərtib olunmalıdır”.

Prorektor onu da əlavə edib ki, Təhsil Nazirliyinin kollegiyasında verilən qərarın yerinə yetirilməsi universitetlər üçün məcburi xarakter daşıdığından bundan sonra bu məsələ problemə çevrilməyəcək və qərar bütün təhsil müəssisələri üçün qüvvədə olacaq.

### Təhsilə əlçatanlığın artırılmasına xidmət edəcək daha bir şərt

Beləliklə, hər il ali təhsil müəssisələrinə qəbul prosesinin sonunda onlarla gəncin təhsil haqqının ödənilməsi problemi ilə üz-üzə qalması və hər il eyni prosesin təkrarlanması Təhsil Nazirliyini əlavə addımlar atmağa sövq etdi. Bəs, bu qərarın nəticəsi nə olacaq?

Təhsil Nazirliyinin kollegiyasında qəbul edilən qərarın yerinə yetirilməsində gözlənilən nəticəsi təhsil almaq istəyənlərin qarşısındakı bir əngəlin də aradan qaldırılmasıdır. Belə ki, ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olunan tələbələr bütün dünyada qəbul edilmiş mövcud qaydalara görə, götürdüyü semestrin, fənnin pulunu verməlidir. Tələbə 4 ildə 240 kredit toplamalıdır. Bu proqram tamamlanmadan təhsilalana təhsil haqqında sənəd - diplom verilmir. Yəni, təhsilin qiymətini ödəməyən tələbə diplom ala bilmir. Deməli, tələbənin yarımildə, ya da il ərzində nə qədər kredit ödəməsi, təhsilini hansı müddətdə tamamlaması universitetin büdcəsinə hər hansı formada zərər vurmur. Ancaq təhsilalanlara gücü çatdığı miqdarda kredit götürməyə, ona uyğun vəsait ödəməyə və gücü imkan verdiyi şəkildə təhsil almağa şərait yaradır.

### “Bu, dövlətin təhsilimlə bağlı mənə verdiyi ikinci böyük şansdır”

Göründüyü kimi, yeni qərar təhsilə əlçatanlığın artırılmasına xidmət edəcək bir şərtin yerinə yetirilməsinin önündə universitetlərin yaratdığı əngəlləri aradan qaldırır. Təhsili daha da əlçatan edən qərarın sevinclə qarşılanacağı şübhə doğurmur. Bunu tələbə adı qazanan Nərgiz Mərdanzadənin sözlərindən də anlamaq çətin deyil: “Bu ildən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində sənayenin təşkili və idarə olunması ixtisası üzrə təhsil alacağam. Subbakalavrlara verilən müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq imkanından yararlanaraq 25 yaşımda yenidən tələbə oldum. Seçdiyim dövlət sifarişli yerlərin heç birini tuta bilmədim. Qəbul olunmağıma sevinsəm də, təhsil haqqını birdəfəyə ödəməli olacağım fikri məni narahat edirdi. Bu qərar barədə eşidəndə çox sevindim. Çünki illik təhsil haqqını birdəfəyə ödəmək güzəranımı xeyli ağırlaşdıracaqdı. Mətbuatdan nə qədər gəncin pul ucbatından təhsildən kənarda qaldığından, qazandığı yerdən bu səbəbdən imtina etməyə məcbur olduğundan xəbərdar idim. Ona görə də Təhsil Nazirliyinin bu qərarının mənim kimi yüzlərlə gənci, hətta ailəni sevindirəcəyinə əminəm. İllik təhsil haqqını tamamlamaq və birdəfəyə ödəmək qayğısından xilas etməsi, məncə, bir gənc olaraq, dövlətin bu il təhsilimlə bağlı mənə verdiyi ikinci böyük şansdır. Həm müsabiqədənkənar tələbə oldum, həm də təhsilhaqqını birdəfəyə ödəmək məcburiyyətindən azad oldum”.

# Müəllimlərin işə qəbulu üzrə müsabiqənin son mərhələsi

## Müsahibə mərhələsində 3728 namizəd iştirak edəcək



**Ruhiyyə BİLALQIZI**

Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə iyunun 24-də elektron sənəd qəbulu ilə start verilib. Orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş, dövlət nümunəli təhsil sənədi (diplom) almış və ya xarici ölkədə aldığı ali təhsil haqqında sənədi tanınmış ölkə vətəndaşlarının və ya Azərbaycanda daimi yaşamaq üçün icazə verilmiş şəxslərin qatıldığı müsabiqə artıq son mərhələsindədir.

### 23 mindən çox namizəd vakansiya mərhələsində

Avqustun 14-də müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi mərhələsi başa çatıb. Bu mərhələdə builki və ötənilki müəllimlərin işə qəbulu üzrə müsabiqənin test mərhələsində müvafiq keçid balı toplayan, həmçinin 10 ildən çox fasiləsiz olaraq müddətsiz müqavilə ilə ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, 3 ildən az olmayan müddətdə işdən ayrılan, diaqnostik qiymətləndirilmədən keçmiş 23609 namizəd qatılıb. Ancaq vakant yer seçən 23 mindən artıq şəxsin hamısı elektron yerləşdirmədə iştirak edə bilməyib. Çünki yalnız elektron ərizəsini təsdiqləmək şərtinə əməl edənlər elektron yerləşdirilirlər. Beləliklə, elektron ərizəsini təsdiqləyən 14003 namizədin qatıldığı elektron yerləşdirmənin nəticələri də artıq bəllidir.

### 7 mindən artıq vakant yer

Müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi mərhələsinin nəticələrinə görə, 3728 namizəd vakant yer tutub. Elektron yerləşdirmənin nəticələri barədə məlumat həmin namizədlərin şəxsi səhifələrinə göndərilib və onlar sonuncu - müsahibə mərhələsinə dəvət olunublar. Müsabiqənin bu mərhələsinə avqustun 19-da start veriləcək. Müsahibənin keçiriləcəyi yer və tarix barədə məlumat namizədlərin şəxsi səhifələrinə göndəriləcək.

Müsahibə mərhələsində namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və dünyagörüşü müsahibə proqramına uyğun olaraq müvafiq komissiya tərəfindən yoxlanılacaq.

Qeyd edək ki, müsabiqəyə ümumilikdə Bakı şəhəri də daxil olmaqla, respublikada ümumi təhsil müəssisələri üzrə 7 mindən artıq vakant yer çıxarılıb.

# UNEC beynəlxalq reytinqdə daha bir uğura imza atıb

UniRank reytinq agentliyinin avqust ayında açıqladığı reytinq sıralamasında UNEC Azərbaycanda lider olub. Həmçinin, reytinq agentliyi tərəfindən hazırlanan “Asiyanın 200 ən yaxşı universiteti” sıralamasında UNEC 192-ci yerdə qərarlaşıb.

UniRank reytinq agentliyinin dünya sıralamasında 788-ci yerdə qərarlaşan UNEC mövqeyinə görə Türkiyənin Atatürk Universiteti, Çinin University of Shanghai for Science and Technology, Koreyanın Chung-Ang University və bir çox Asiya və Avropa universitetlərini qabaqlayıb.

UniRank reytinqi dünya üzrə 13600 universitet və kolleci əhatə edir.

Reytinq 4 veb mənbədən alınan 5 müstəqil veb ölçmələrə əsaslanan alqoritm üzrə aparılır. UniRank-in ölçü komponentlərini Moz Domain Authority, Alexa Global Rank, SimilarWeb Global Rank, Majestic Reffering Domains və Majestic Trust Flow təşkil edir.

# Tələbələr ilk dəfə təcrübə proqramında

Bu il ilk dəfə olaraq Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) tələbələri Kənd Təsərrüfatı Nazirliyində təcrübə proqramında iştirak edir.

Bir ay davam edəcək təcrübə proqramı çərçivəsində ADAU-nun Aqrar İnkişaf Könüllüləri - Nərmin Yusifova, Ruslan Vəliyev, Ağgül Əhmədova, Valeh Əsədov və Orxan Muradzadə Kənd Təsərrüfatı Nazirliyinin müvafiq olaraq Torpaqdan istifadəyə nəzarət, Fermerlər, Assosiasiyalar və Kooperativlərlə iş, İctimaiyyətlə əlaqələr və informasiya təminatı, Təhsil və Təlim, Bitkiçiliyin təşkili və monitorinqi şöbələrində təcrübə keçirlər.

Təcrübə proqramının əsas məqsədi tələbələri Nazirliyin iş prinsipi ilə yaxından tanış etmək, onlara aqrar sahəyə göstərilən dövlət dəstəyi barədə ətraflı məlumat vermək, eləcə də sənədlərin düzgün tərtib edilməsi və göndərilməsi ilə bağlı bacarıqları formalaşdırmaqdır.

Qeyd edək ki, bu proqram tələbələrə təcrübə qazanmaq imkanı verməklə yanaşı, gələcəkdə aqrar sahədə çalışmaq arzusunda olanlara növbəti dəstəkdir.

# Süni intellekt tələbələri qiymətləndirəcək

## Pis oxuyanlar universitetdən kənarlaşdırılacaq



**Oruc MUSTAFAYEV**

Təhsil sistemində süni intellektin təsir dairəsi genişlənməkdədir. Tamamilə mümkündür ki, yaxın vaxtlarda süni intellekt təhsildə geridə qalan tələbələrin ali məktəbdən kənarlaşdırılmasına cəlb olunacaq. Rəqəmsal məlumatlara istinad edən süni intellekt tələbələrin davamiyyətini, mühazirələrdə fəallığını, ictimai həyatda iştirakını və davranışlarını qiymətləndirəcək.

Əldə olunmuş informasiyanın təhlilindən sonra ali məktəblərin rəhbərliyi pis oxuyan tələbəyə davranışları ilə bağlı xəbərdarlıq olunmasına və ya universitetdən kənarlaşdırılmasına, yaxşı oxuyanların isə həvəsləndirilməsinə, onlar üçün əlavə məşğələlərin təşkilinə qərar verəcək.

Rusiyanın EDCrunch Elmi Tədqiqat Texnologiyalar Universitetinin direktoru Nurlan Kiyasov hesab edir ki, süni intellekt müəllimlərdə tələbələrə qarşı qabaqcadan mənfi rəyin formalaşması kimi halları aradan qaldırmağa imkan verəcək.

Sistemin yoxlanması üçün bir neçə ali məktəb seçiləcək. Sistemin tətbiqinə artıq bu ildən başlanılacaq, 2021-ci ildən isə ayrı-ayrı universitetlərdə qüvvədə olacaq. N.Kiyasov qeyd edir ki, süni intellektin tövsiyələri icraya məcburi olmayacaq, tələbənin taleyi haqqında qəti qərarı dekanatlar qəbul edəcək.

Rusiyanın Təhsil Nazirliyinin məlumatına görə, ötən il müxtəlif səbəblərdən ali məktəblərdən kənarlaşdırılmış tələbələrin sayı 16,8 faiz təşkil edib. Ekspertlər hesab edirlər ki, süni intellektin tətbiqi bu göstəricini 10 faizə qədər azaltmağa imkan verəcək.

# Slavyan dünyasına açılan qapı

## BSU Slavyan ölkələrində azərbaycanşünaslığı təbliğ edir

**Dilarə HACIYEVA,**
*dosent, tarix üzrə fəlsəfə doktoru*

Ölkəyə rəhbərliyinin ilk illərindən sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi qarşıya qoyan ümummilli lider Heydər Əliyev hər zaman inkişaf və tərəqqinin elm və təhsildən asılı olduğunu qeyd etmişdir. Təhsil sisteminin problemlərini öyrənmədən prioritet sahələrin müəyyən edilməsini mümkünsüz hesab edən Ulu Öndərin təhsil strategiyasının nə qədər fundamental konsepsiya olduğunu onun rəhbərliyi altında hazırlanan islahatlar proqramına diqqət yetirdikdə daha aydın görmək olur. O, bu sahəyə milli təhlükəsizliyin, Azərbaycan dövlətçiliyinin təməl prinsiplərindən biri kimi yanaşır, Azərbaycan xalqının müasir dünyaya inteqrasiyasının, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin, demokratik dəyərlərə yiyələnməsinin kökündə təhsilin dayandığını bəyan edirdi.

Tərəqqiyə gedən yolda uğurlar qazanmaq üçün dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılmasını, sosial-iqtisadi, mədəni, digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulmasını zəruri hesab edən Ümummilli Lider təhsilin beynəlxalq münasibətlərdə rolunun yüksəlməsinə xüsusilə diqqət yetirirdi. Ulu Öndərin rəhbərliyi ilə bu sahədə həyata keçirilən köklü islahatlar nəticəsində M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında meydana gələn Bakı Slavyan Universiteti (BSU) müstəqil dövlətimizin slavyan dünyasına açılan qapısı oldu. Universitetin açılışı zamanı ulu öndər Heydər Əliyevin dilə gətirdiyi “Biz bu universitetə böyük ümidlər bəsləyirik” ifadəsi çox keçmədən reallığa çevrildi. BSU bu gün Azərbaycan tarixinin, etnoqrafiyasının, dilinin və ədəbiyyatının, milli-mənəvi dəyərlərinin təbliği istiqamətində səmərəli fəaliyyət göstərməklə yanaşı, həm də özünəməxsus diplomatik missiya yerinə yetirir, Azərbaycan Respublikasının slavyan ölkələri ilə əlaqələrinin genişlənməsində və dərinləşməsində mühüm rol oynayır. Azərbaycanda fəaliyyət göstərən əksər səfirlik və diplomatik korpuslarla universitetin sıx əlaqələri vardır; onlarla birgə müxtəlif tədbirlərə imza atır, tələbələrin həmin səfirliklərdə təcrübə keçməsinə şərait yaradılır.

BSU-nun beynəlxalq nüfuzu 2016-cı ildə qeyd edilən 70 illik yubiley günlərində çox aydın nəzərə çarpdı. Yubiley tədbirlərində universitetlə əməkdaşlıq edən əksər xarici ali təhsil müəssisələrinin əməkdaşları, siyasət adamları, o cümlədən, Bolqarıstan Respublikasının vitse-prezidenti, tanınmış siyasi xadim Marqarita Popova iştirak etdi. Ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə universitetin 50 əməkdaşı müxtəlif təltiflərə - “Əməkdar elm xadimi”, “Əməkdar müəllim”, “Əməkdar jurnalist” fəxri adlarına, “Tərəqqi” medalına, “Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı”na, “Qabaqcıl təhsil işçisi” döş nişanına layiq görüldü. Bu, BSU-ya dövlət başçısının verdiyi dəyərin parlaq nümunəsidir.

Azərbaycanın müxtəlif ölkələrlə, eləcə də slavyan ölkələri ilə diplomatik əlaqələrinin yaranmasının 25 illiyi kimi mühüm beynəlxalq tədbirlərin məhz BSU-da qeyd edilməsi bu təhsil müəssisəsinin strateji baxımdan ölkəmiz üçün nə qədər önəmli olduğunu bir daha təsdiqləyir. Ukrayna və Bolqarıstan respublikalarının Azərbaycandakı səfirliklərinin universitetdə təşkil olunan və həmin ölkələrə aid BSU tədris-mədəniyyət mərkəzlərinin yaxından iştirakı ilə keçirilən tədbirlərində slavyan ölkələrini təmsil edən səfirlərlə yanaşı, 30-dan artıq digər ölkələrin səfirlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı BSU-nun regionun ən böyük və nüfuzlu rusistika və slavistika mərkəzi olduğunun göstəricisi sayılmalıdır. Dünyanın tanınmış siyasətçiləri - Bolqarıstan Respublikasının vitse-prezidenti İliyana Yotovanın, rusiyalı siyasətçilər Aleksandr Duqin və Gennadi Burbulisin, amerikalı jurnalist Peter Tasenin və eləcə də müxtəlif ölkələri təmsil edən səfirlərin burada mütəmadi mühazirə və ustad dərsləri verməsi universitetimizin dünyanın tanınmış ali məktəbləri sırasına qatılmasına əyani sübutdur.

BSU əməkdaşları Rusiyanın 28 universiteti ilə bağlanılmış ikitərəfli müqavilələrə əsasən Moskva, Sankt-Peterburq, Ufa, Kazan, Stavropol, Tula, Volqoqrad və s. şəhərlərdə keçirilən beynəlxalq tədbirlərin iştirakçısı olub, Rusiya-Azərbaycan Universitetləri Assosiasiyasının tədbirlərində və Rusiya-Azərbaycan regionlararası forumlarında təmsil olunublar. 2017-ci ilin aprelinə təsadüf edən və Kişinyovda keçirilən Slavyan universitetlərinin II Forumunda BSU YUNESKO-nun xüsusi diplomuna layiq görülüb. Ümumiyyətlə, son üç ildə BSU 30-dan artıq xarici ölkə universiteti ilə müqavilə imzalayıb.

2017-ci ildə Beynəlxalq Rus Dili və Ədəbiyyatı Müəllimləri Assosiasiyası (MAPRYAL) ilə birgə keçirilən və Azərbaycanda rus dili və ədəbiyyatının tədrisi problemlərinə həsr olunan Beynəlxalq elmi konfransda MAPRYALın və Rusiya Təhsil Akademiyasının prezidenti, akademik Lyudmila Verbitskaya, Rusiya Xalqlar Dostluğu Universiteti, Puskin adına Dövlət Rus Dili İnstitutu, Ukrayna, Belarus, Gürcüstan və Qazaxıstan universitetlərini təmsil edən 40-dan artıq metodist-alim, ali və orta məktəb müəllimi iştirak edib. Həmin qurumun bu il Nur-Sultan şəhərində keçirilən Baş Assambleyasında BSU-nun rektoru, professor Nurlana Əliyeva MAPRYALın Rəyasət Heyətinin üzvü seçilib.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı BSU-nun Ələddin Keyqubad Universiteti ilə birgə Türkiyədə və Torn Universiteti ilə birgə Polşada keçirdiyi Beynəlxalq elmi konfransları da xüsusi qeyd etməyə dəyər.

> **Universitetin açılışı zamanı ulu öndər Heydər Əliyevin dilə gətirdiyi “Biz bu universitetə böyük ümidlər bəsləyirik” ifadəsi çox keçmədən reallığa çevrildi. BSU bu gün Azərbaycan tarixinin, etnoqrafiyasının, dilinin və ədəbiyyatının, milli-mənəvi dəyərlərinin təbliği istiqamətində səmərəli fəaliyyət göstərməklə yanaşı, həm də özünəməxsus diplomatik missiya yerinə yetirir, Azərbaycan Respublikasının slavyan ölkələri ilə əlaqələrinin genişlənməsində və dərinləşməsində mühüm rol oynayır.**

BSU slavyan ölkələrində azərbaycanşünaslığın təbliği ilə mütəmadi məşğul olan ali təhsil müəssisəsidir. Universitet rəhbərliyi BSU-da və onun xaricdə təşkil etdiyi mərkəzlərdə (Moskva Dövlət Linqvistik Universiteti, Müqəddəs Oxridski adına Sofiya Universiteti, Kiyev Linqvistik Universiteti, Poltava Ticarət-Sənaye Akademiyası, Çerniqov Dövlət Universiteti, M.Tank adına Belarus Dövlət Pedaqoji Universiteti, Ural Dövlət Universiteti) azərbaycanşünaslığın inkişafı ilə bağlı Prezident İlham Əliyevin 2008-ci il tarixli sərəncamına müvafiq olaraq, hər il konkret tədbirlər planı həyata keçirir. Son iki ildə BSU rektoru, professor Nurlana Əliyevanın rəhbərliyi ilə nümayəndə heyəti Bolqarıstanda olub, Sofiya Universitetindəki mərkəzin əməkdaşları ilə görüşüb, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bərpa olunmuş “Trapezitsa” Memarlıq Muzey-Qoruğunu ziyarət edib.

2018-ci il 6 mart tarixində Azərbaycanda Belarus Təhsil Günləri çərçivəsində Azərbaycan və Belarus ali təhsilinin beynəlmiləlləşdirilməsi adlı tədbir keçirilib. Həmin tədbirdə M.Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin rektoru Aleksandr Juk iştirak edib. BSU ilə Türkiyə Cümhuriyyətinin Reytinq Akademiyası 15-16 noyabr 2018-ci il tarixlərində “Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan” adlı beynəlxalq elmi konfrans keçiriblər. Kiyev Linqvistik Universiteti və M.Tank adına Belarus Dövlət Pedaqoji Universiteti, Reytinq Akademiyası ilə müştərək elmi əsərlər çap olunub, Çerniqov Dövlət Texnologiya Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi, Azərbaycan dili Bazar Günü məktəbi fəaliyyətə başlamışdır. BSU-nun rektoru N.Əliyeva və elmi işlər üzrə prorektor R.Novruzov universitetin Fəxri professoru adına layiq görülüblər.

Bundan əlavə, 18 noyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş “Azərbaycan və Avropa: multikulturalizm, tolerantlıq və birgəyaşayışın problemləri və perspektivləri”, 1 aprel 2017-ci ildə “Müasir tərcüməşünaslığın və mədəniyyətşünaslığın aktual problemləri”, 28 aprel 2018-ci ildə “ Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzularında tələbə, magistr və şagirdlərin respublika elmi konfransları keçirilib.

BSU nəzdində fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzləri universitetdə təmsil olunan ixtisaslara, dil və mədəniyyətlərə müvafiq olaraq, müxtəlif layihələr həyata keçirir. Mədəni-kütləvi tədbirlər üstünlük təşkil etsə də, bir sıra mərkəzlər, o cümlədən, Yunan, Polşa, Belarus, Rusiya, Ukrayna mərkəzləri builki fəaliyyətlərində bədii tərcümələrə, lüğətlərin və məlumat kitabçalarının tərtibinə geniş yer veriblər. Yunanıstanın Azərbaycandakı səfiri Nikolaos Kanellosun təşəbbüsü ilə 2017-ci ilin dekabrında əksər slavyan ölkələrinin və Türkiyə Cümhuriyyətinin səfirlərinin iştirakı ilə “Müasir cəmiyyət: beynəlxalq münasibətlər, gələcək naminə dialoq”, 2018-ci ildə isə “XXI əsr: dünyaya baxış, təhsil və mədəniyyətin harmoniyası” mövzularında BSU-da “dəyirmi masa”lar keçirilib və həmin formatda görüşə yeni səfirlərin qoşulması artıq ənənəyə çevrilib.

BSU-nun Polşanın Torun Universiteti, “Adam Marşalek” Holdinqi ilə sıx əməkdaşlıq əlaqələri ənənəvi olaraq bu ölkədə keçirilən Asiya Konqresində universitetimizin alimlərinin iştirakına şərait yaradıb. Torun Universitetində keçirilən Asiya Konqresində BSU-nun nümayəndə heyəti bir neçə dəfə iştirak edib. Professor N.Əliyeva BSU ilə Polşanın Torn Universitetinin birgə təsis etdikləri və “Adam Marşalek” nəşriyyatında çap olunan elmi -kütləvi “Nova Visxodnya Politika” jurnalının həmredaktoru seçilib.

BSU nəzdində tədris-mədəniyyət mərkəzlərinin fəaliyyətini gücləndirmək, universitetdə tədris olunan əcnəbi dillər üzrə tələbələrin dil-danışıq vərdişlərini inkişaf etdirmək, onların tələbə və müəllim mübadiləsi proqramlarında iştirak imkanlarını genişləndirmək məqsədilə xarici mütəxəssislərin ilboyu və ya müəyyən müddətə tədris prosesinə cəlbinə diqqət artırılıb. Polşa, Almaniya və Çexiyadan dəvət olunmuş əcnəbi müəllimlər tədrislə yanaşı, nəşr və tərcümə layihələrinə də qoşulublar.

Müxtəlif slavyan dilləri (“Tərcümə” ixtisası) və ölkələri (“Regionşünaslıq”) üzrə bakalavriat səviyyəsini bitirən tələbələrin BSU ilə əməkdaşlıq edən Rusiya, Polşa, Çexiya, Belarus, Ukrayna universitetlərində magistratura təhsilini davam etdirmələri, “Erasmus+”, “Mövlana” Beynəlxalq proqramları üzrə tələbə mübadiləsində daha çox tələbənin iştirakı üçün universitetin Beynəlxalq şöbəsi müfafiq təqdimatlar edir. Azərbaycanın bir sıra universitetlərinin, o cümlədən, BSU-nun iştirak etdiyi yeni “Erasmus+” Beynəlxalq mübadilə proqramı (PETRA) ali təhsil ocaqlarımızda tədris və təlimə, elmi innovasiyaların tətbiqinə və “Elektron universitet” layihəsinin icrasına dəstək olmasına, həm də ölkənin paytaxtda və regionda yerləşən universitetləri arasında əlaqələrin yaranmasına və möhkəmlənməsinə xidmət edir. 2019-cu ildə BSU-da yaradılmış Təlim-tədris mərkəzi universitet tələbələri, alimləri və müəllimləri ilə yanaşı, digər təhsil müəssisələrində çalışan rus, ingilis, alman, fransız dili müəllimləri, metodistlər üçün yeni stajkeçmə və tədrisdə innovativ yanaşmalara yiyələnmə məkanına çevrilib.

BSU-da əcnəbi vətəndaşların, o cümlədən, MDB məkanında yaşayan soydaşlarımızın bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil almalarına lazımi şərait yaradılıb. Son iki ildə dövlətlərarası müqavilələr əsasında Çin, Vyetnam, Türkiyə vətəndaşlarının magistratura şöbəsində “Rus dili” ixtisası üzrə təhsil almaq üçün müraciətlərinin sayı artıb.

Universitetin nəzdində fəaliyyət göstərən Rusiya tədris-mədəniyyət mərkəzləri (Moskva və Sankt-Peterburq auditoriyaları) Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi ilə müştərək yubiley tədbirləri, yaradıcılıq gecələri, yeni dərsliklərin və kitabların təqdimatlarını keçirib. Puşkin, Lermontov, Yesenin, Axmatova yaradıcılığına həsr olunmuş ədəbi-bədii gecələrə tələbələrlə yanaşı, orta məktəb şagirdləri və müəllimləri dəvət olunub. Artıq neçə illərdir ki, BSU Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən Rus dili üzrə Respublika olimpiadasının və Puşkiniana müsabiqəsinin yekun mərhələsinə ev sahibliyi edir.

MDU-nun Bakı filialı və Rusiya İnformasiya-Mədəniyyət Mərkəzində rus dilində təşkil olunan, Rusiyanın etnoqrafiyasına, coğrafiya və tarixinə həsr edilən imla müsabiqələrində, rusca kütləvi imla yazısında BSU-nun rus bölmələrinin tələbələri ilə yanaşı, Azərbaycan bölmələrinin də tələbələrinin fəal iştirakına şərait yaradılıb.

BSU Rusiya Xalqlar Dostluğu Universiteti tərəfindən icra olunan “Şəbəkə universiteti” layihəsində iştirakını davam etdirir və “Filologiya (rus dili və ədəbiyyatı)” ixisası üzrə magistratura səviyyəsində ikili diplom verir. Bu istiqamətdə slavyan ölkələrinin tanınmış universitetləri ilə gələcək əməkdaşlıq əlaqələri qurulur.

Universitet Azərbaycan və rus dillərində təlimlə yanaşı, bir sıra ixtisaslar üzrə ingilis dilində tədris prosesini həyata keçirir. BSU Qafqazda və Zaqafqaziyada rusistikanın mərkəzi kimi ali və orta təhsil pilləsində pedaqoji və elmi-pedaqoji kadrların ixtisasartırma, ixtisasdəyişmə və stajkeçmə tədbirlərinə xüsusi önəm verir. Son iki ildə bu məqsədlə Rusiyanın bir sıra aparıcı universitetləri ilə (Rusiya Xalqlar Dostluğu Universiteti, Moskva Dövlət Pedaqoji Universiteti, Puskin adına Dövlət Rus Dili İnstitutu) müştərək tədris proqramların icrası davam etdirilib.

BSU-nun slavyan ölkələrində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzləri bu gün azərbaycanşünaslığın və xalqımıza xas olan multikultural dəyərlərin MDB və Avropa məkanında yayılmasına xidmət edir, yunan-slavyan və roman-german mədəniyyəti nümunələrinin Azərbaycanda tanıdılmasına və gənc nəslin bu mədəni irsə dərindən yiyələnməsinə səy göstərir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyası əsasında yaradılmış bu ali məktəbdə təkcə slavyan və türk xalqlarının tarixi və ədəbi-mədəni əlaqələrinin deyil, həm də Avrasiya arealını Qərblə birləşdirən tarixi, mədəni, ədəbi, dil və dini münasibətlərin öyrədilməsinə ciddi əhəmiyyət verilir.

Mayın 4-də ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə BSU rektoru N.Əliyevanın rəhbərliyi ilə tələbə-müəllim heyətinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfəri geniş rezonans doğurdu. Bu, BSU tələbələrinin oradakı pedaqoji təcrübələrinin yekununa təsadüf etmişdi. Bu səfər gənclərimizin vətənpərvərlik ruhunun yüksəlməsində, torpaqlarımızın azad olacağına inamın güclənməsində mühüm rol oynadı.

Ölkənin əmək bazarı, o cümlədən rusdilli təhsil müəssisələri üçün müxtəlif ixtisaslar üzrə pedaqoji kadrlar, yunan və slavyan dilləri üzrə tərcüməçilər, slavyan, Şərqi Avropa, MDB ölkələri üzrə regionşünaslar, beynəlxalq əlaqələr üzrə mütəxəssislər hazırlayan, ali təhsilin bütün səviyyələrində mütəxəssis hazırlığı proqramları həyata keçirən BSU qarşıdan gələn tədris ilində ölkənin tərəqqisinə, beynəlxalq əlaqələrinin genişləndirilməsinə xidmət edəcək bir neçə yeni ixtisaslar üzrə mütəxəssis hazırlığı proqramına başlayır.

Ulu öndər Heydər Əliyevin xeyirduası ilə yaradılmış və böyük strateji əhəmiyyətə malik olan universitet bütün zamanlarda o böyük və dahi şəxsiyyətin etimadına layiq olacaq.



# Süni intellekt və etika problemləri

## Robot texnologiyasının xeyirləri ilə yanaşı, mümkün təhlükələr də nəzarətdə saxlanılmalıdır

⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

Gəlin unutmayaq, dünyanın "altını üstünə çevirən" bolşevik inqilabı niyə baş vermişdi?

"Beneficial Al 2017"də hazırlanan siyahıya iştirakçıların ən azı 90%-nin imza atması tələb olunurdu. Müzakirələr nəticəsində super zəkaya dair araşdırmaları əhatə edən 23 prinsipdən ibarət anlaşma hazırlandı və imzalandı. Siyahıya imza atanların sayı kifayət qədər idi. Təsəvvür edin: 1000-dək süni intellekt ixtiraçısı və 1500 nəfərə yaxın robot texnologiyaları ilə bu və ya digər formada əlaqəli olan sahələrin təmsilçiləri, o cümlədən "Tesla"nın memarı İlon Mask və məşhur kosmoloq Stiven Hokinq. Ekspertlərin fikrincə, bəndlərdən bəzilərinə, əsasən də şirkətlərin ixtiralarının şəffaflığına dair prinsipə heç də hamı əməl etməyəcək. Ancaq siyahının bütövlükdə razılaşdırılması "Skynet"in, yaxud robotların mümkün qiyamının qarşısının alınması və ya ləngidilməsinə öz töhfələrini verə biləcək.

İndi isə keçək bilavasitə prinsiplərə:

1. Süni intellekt sahəsindəki araşdırmaların məqsədi nəzarətsiz super zəka deyil, cəmiyyət üçün xeyirli olacaq alətin hazırlanması olmalıdır;

2. Maliyyə süni intellektin istehsalı ilə yanaşı, onun istifadəsinə dair məlumatverici sferalara da yatırılmalıdır. Bunun nəticəsində insanlar informatika, iqtisadiyyat, hüquq, etika və cəmiyyətşünaslığa dair suallara cavab tapa biləcəklər;

Söhbət hansı suallardan gedir? Məsələn, necə etmək olar ki, süni intellekt onların qarşısında qoyulmuş vəzifələri təhlükəsiz həyata keçirsin? Yaxud, necə təminat vermək olar ki, süni intellektin mexanizminə neqativ ünsürlər tərəfindən müdaxilələr olmayacaq? Daha bir sual: tutaq ki, süni intellekt bir sıra peşələri insanın əlindən alır və nəticədə məhsuldarlıq artır, maliyyə itkiləri azalır. Bəs onda hansı tədbirləri görmək lazımdır ki, insan resurslarının mühafizəsini təmin edə bilsin? Belə bir sual mövzumuz kontekstində xüsusilə maraqlıdır: süni intellektin hansı hüquqi və etik statusu olacaq?

3. Tədqiqatçıların və siyasətçilərin konstruktiv və bərabərhüquqlu əməkdaşlığını təşkil etmək lazımdır;

4. İxtiraçıların cəmiyyətində tam şəffaflıq və aşkarlığa riayət olunmalıdır;




5. Süni intellekt ixtiraçılarının özlərinin arasında yüksək əməkdaşlıq mühiti olmalıdır ki, təhlükəsizlik standartlarının pozulması hallarının qarşısı vaxtında alınsın.

### Məsələnin mənəvi tərəfi

İnsan fəaliyyətinin bir sıra sahələrində süni intellektin uğurla tətbiqi gələcəkdə robotla münasibətlərimizin hüquqi-etik yönlərini aktuallaşdıracaq. Proqnozlaşdırılır ki, hüququn ali məktəblərdə tədrisi və hüquqla bağlı peşələrdə də bəzi dəyişikliklər olacaq. Məsələn, 2017-ci ildən etibarən Rusiyanın bir sıra iri banklarında hüquqşünas vəzifəsini hazır alqoritmlər əvəzləyir. Bu, hüquqşünasın iş yerini itirməsi deməkdir. Digər tərəfdən, onun üçün gözəl perspektiv açılır: insanla robotların ünsiyyətinin intensivləşməsi ortaya ciddi münaqişələr çıxaracaq. Axı ola bilməz ki, həmişə sülh olsun! Bax, bu səbəbdən sabah süni intellektlə münasibətlər üzrə ixtisaslaşmış etik hüquqşünasların olacağı istisna deyil. Aşağıdakı prinsiplər qrupunda məhz belə problemlər əhatə olunur. Beləliklə:

6. Süni intellekt sistemləri elə lahiyələşdirilməlidirlər ki, onların məqsəd və davranışları ümumbəşəri dəyərlərə zidd olmasın;

7. Süni intellekt insan ləyaqəti idealları, haqları və azadlıqları, habelə rəngarənglik mədəniyyəti ilə ahəngdə işləməlidir;

8. Süni intellektlə iş zamanı insanların real və təsəvvür olunan azadlıqları məhdudlaşdırılmamalıdır;

9. İnsan hər zaman seçimində azad olmalıdır: bu işi özü etsin, yaxud süni intellektə tapşırsın;

10. Süni intellektin fəaliyyəti bəşəriyyətin ziyanına deyil, xeyrinə xidmət etməlidir;

11. Hamı süni intellektlə bağlı muxtar silah növlərinin istehsalından qaçmalıdır;

12. Texnologiyalar dünyada yaşayan maksimum sayda insanlar üçün yararlı olmalıdır;

13. Hər bir şəxs süni intellektin tətbiqi nəticəsində yaranmış iqtisadi imkanlardan istifadə edə bilməlidir;

14. Süni intellekt sistemlərinin istismarı ərzində təhlükəsiz və yararlı olacağına təminat verilməlidir;

15. Əgər robot texnikası hər hansı zərərə səbəb olubsa, dərhal bunun səbəbləri öyrənilməlidir;

16. Məhkəmə işlərinə istənilən müdaxilə sanksiyalaşdırılmalıdır və sonradan mütəxəssislər tərəfindən analiz edilməlidir;

17. Süni intellektin hazırlanması və ya tətbiqi zamanı bilərəkdən vurulan zərərin məsuliyyətini mühəndislər və ixtiraçılar daşıyır;

18. İnsan istifadə etdiyi robota dair bütün məlumatlardan xəbərdar olmalıdır.

### Robotun əvvəli, bizim sonumuz?

İxtiraçıların 23 bənddən ibarət anlaşmalarının son 5 prinsipi "uzunmüddətli məsələlər"ə həsr olunub. Süni intellektlə maraqlanan və pessimist ssenariləri müdafiə edən elm adamları, ixtiraçı və mühəndislər, futuroloqlar bu qənaətdədirlər ki, sadə dillə desək, robotlar bizim sonumuza çıxacaqlar. İ.Mask hətta belə bir müqayisə edir: "İndi bizlər üçün evdə saxladığımız heyvanlar nədirlərsə, insanlar da gələcəkdə robotlar üçün eyni statusda ola bilərlər". M.Kaku hesab edir ki, hazırda ən ağıllı robotun beyni həşərat beyni gücündədir. Nə vaxt ki, süni intellekt meymun ağlında oldu (ehtimal olunur ki, təqribən 100 ilə), həmin zaman insan üçün real təhlükəyə çevriləcək. Bu mövzuda Hollivudda yüzlərlə kino çəkilib və biz qabaqlar onlara sanki cizgi filmitək baxırdıqsa, rejissorlar getdikcə daha inandırıcı təəssürat yaratmağa başlayıblar. Ümumiyyətlə, bəzi ekspertlər hesab edir ki, gələcəyin mənzərəsini ən real çəkən şəxslər də məhz fantastik filmlərə ssenari yazan şəxslər və rejissorlardır. İsveçrəli futuroloq G.Leonqardın fikrincə, süni intellekt inkişaf etdikcə insan öz simasını itirmiş olur və bu, qeyri-təbiidir.

Mühəndis və ixtiraçıların imzaladıqları siyahıda təbii ki, bu problemdən də yan keçilmir:

19. Biz süni intellektin maksimum imkanlarını dəqiq hesablamalıyıq ki, resursların qeyri-rasional istifadəsinin qarşısını ala bilək;

20. Süni intellektin inkişafı intensiv xarakter alacağından texnologiyalar nəzarət altında olmalıdır ki, əks və arzuolunmaz reaksiyalar baş verməsin;

21. İrimiqyaslı risklər elə dəqiqliklə hesablanmalıdır ki, mümkün zərərin həddini minimuma endirmək mümkün olsun;

22. Özünü inkişaf etdirə və istehsal edə bilən texnologiyalar xüsusilə nəzarət altında olmalıdırlar;

23. Super zəka ayrı-ayrı qurumlara və ya dövlətə deyil, bütün bəşəriyyətə xidmət etməlidir.

# STEM təhsildə PhD-lərin sayı artır

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Altıncı və yeddinci yerləri müvafiq olaraq Fransa (13729) və Cənubi Koreya (12931) tutub. İspaniya və İtaliya səkkizinci və doqquzuncu yerləri tutmaqla müvafiq olaraq 10889 və 10678 nəfər doktorant hazırlayıblar. İlk 10-luqda sonuncu yer Avstraliyaya (8400 nəfər) məxsusdur.

Məruzədə qeyd olunur ki, əgər rəqəmlərə adambaşı nəzər salınarsa, onda cədvəlin yuxarı hissəsi bir qədər başqa cür görünə bilər.

### Son 20 ildə dünyada PhD hazırlığı artıb

OECD-nin məlumatları göstərir ki, son 20 ildə bütün dünyada fəlsəfə doktoru hazırlığı artıb. Əksəriyyət ölkələr isə OECD-nin payına düşür. Məruzədə qeyd olunur ki, güclü inkişaf edən iqtisadiyyatlara malik ölkələr ali təhsil sahəsində öz imkanlarını genişləndiriblər. Bunu sıralamada 24300 fəlsəfə doktoru hazırlığına malik Hindistanın yüksək yer tutması da sübut edir.

Bəzi elm sahələri fəlsəfə doktorları arasında daha çox məşhurdur. Fəlsəfə doktoru sahəsində təsis olunan yeni elmi dərəcələrin təxminən 40 faizi STEM (elm, texnologiya, mühəndislik, riyaziyyat) elmlərinə aiddir və bu faiz yeni məzunların (səhiyyə sahəsində doktorluq dərəcələri də nəzərə alınmaqla) 58%-ni əhatə etməkdədir. Doktorluq proqramları xüsusilə Fransada (59%), Kanadada (55%) və Çində (55%) təbii elmlərə və texnikaya yönəldilib.

Məruzədə qeyd edilmiş başqa tendensiyalar arasında biliklərin qlobal iqtisadiyyatlar erasını açan rəqəmsallaşma və tədqiqatların beynəlmiləlləşdirilməsi də yer alıb.

# Elektronlaşan qəbul



Jalə MÜTƏLLİMOVA

Baxırsan valideyn şəhərin mərkəzində yaşayır, övlad da orda ilk məktəbə gedib. Ancaq təhsilini başa vuranda səsi, məsələn, ucqar bir dağ kəndindən gəlir. Bu, təbii ki, sistemdə neqativ halları istisna etmir və xoş olmayan mənzərədir. Ancaq bu ildən çox xoş mənzərə yaradacaq addım atılıb. Təhsil Nazirliyi neqativləri sıfıra endirmək, prosesi şəffaflaşdırmaq məqsədi ilə vacib qərar verib. Belə ki, bu ilin avqustundan şagirdlərin yerdəyişməsi üzrə ərizə qəbulunu dayandırıb. Ölkənin ümumi təhsil müəssisələrində şagird yerdəyişməsi prosesi elektronlaşdırılıb. Bu prosesdə hədəf bəlli:

*Ölkə vətəndaşları, o cümlədən təhsil sistemində çalışanlar dünyəvi sistemləri mənimsəməli, eləcə də dünyəvi, inkişafa aparan sistemlərin uyğunları Azərbaycanda tətbiq olunmalı;*

*Strateji əhəmiyyətli təhsil sistemi dünya standartlarının tətbiqini sistemli şəkildə davam etdirməli;*

*Şagirdlərin statistikasına aid məlumat dəqiq və səlis olmalıdır;*

**Anlaşılacaq bu ki, elektronlaşan qəbul insanların işini rahatlaşdıracaq. Təhsil Nazirliyinin daha bir irəli atılan addımı kimi dəyərləndiriləcək. Eyni zamanda, şəffaflığı təmin edib, neqativ hallar barədə dolaşan söhbətləri aradan qaldıracaq. Bir sözlə, elektronlaşmağa dəyər...**

*Ümumtəhsil məktəblərində şagird kontingenti sabit saxlanmalıdır;*

*Neqativ sayılan halların qarşısı tamamilə alınmalı, şəffaflıq təmin edilməli;*

*Valideynlər və şagirdlər qanuni haqlarından istifadə edə bilməmək kimi ədalətsizliklə üzləşməməli.*

Diqqət etsək aydın bəlli olur ki, Təhsil Nazirliyinin bütün işləri elektronlaşmış qaydada görməyi hədəfləməsidir.

Hazırda ölkə üzrə dörd mindən çox orta məktəbdə bir milyon beş yüz mindən çox şagird təhsil alır. İl ərzində müəyyən səbəblərə görə şagirdlər məktəbini dəyişməyə məcbur olur. Bu proses baş verəndə bəzi qanunsuzluqlara yol verilir ki, bu, bütünlüklə təhsil sisteminin nüfuzuna xələl gətirir. Şagird yerdəyişməsi, ilk növbədə, zədələnmiş nüfuzu geri qaytarmağa xidmət edir. Bundan başqa, "yer yoxdur" bəhanəsi aradan qalxır ki, bu da ictimai rəydə təhsilə, Təhsil Nazirliyinə, məktəbə aqressiyanın azalmasına xidmət edir. Ümumiyyətlə, bütün işləri mərhələli şəkildə elektron formata transfer etməyin özü təqdir olunası addımdır. Çünki təhsilin inkişafına xidmət edir.

*Zəruri qeyd: Təhsil Nazirliyindən verilən məlumata görə, övladını digər məktəbə dəyişmək istəyən valideyn həmin məktəbin direktoruna yerdəyişmənin səbəbi göstərilməklə ərizə ilə müraciət edir. Ərizəyə şagirdin yarım illik və illik qiymət cədvəli əlavə edilir. Məktəbin direktoru iki iş günü müddətində şagirdin indiyədək təhsil aldığı məktəbin direktoruna təqdim etmək üçün arayış verir. Şagirdin şəxsi işi həmin arayış əsasında yeni təhsil alacağı məktəbə verilir və hər iki məktəb tərəfindən əmrləşdirilir. Bu, I-IX sinif şagirdlərinin ölkə daxilində yerdəyişməsi qaydalarına aiddir.*

*X-XI sinif şagirdlərinin ölkə daxilində yerdəyişməsinə isə, ailəsi ilə birlikdə yaşayış yerinin dəyişməsinə dair müvafiq təsdiqləyici sənəd təqdim edildikdə, lisey və gimnaziyalarda, özəl ümumi təhsil müəssisələrində tətbiq edilən tədris proqramlarının mənimsənilməsi mümkün olmadıqda icazə verilir.*

*Xatırladaq ki, şagirdlərin yerdəyişməsinin elektronlaşması ilə əlaqədar ölkədən xaricdə təhsilini davam etdirəcək şagirdlər sənədlərini müvafiq təhsili idarəetmə orqanlarından və ümumi təhsil müəssisələrindən ala bilərlər.*

*Avqustun 15-i, 15:00-dan şagirdlərin elektron yerdəyişməsi prosesinə start verilib. Şagird yerdəyişməsinin elektronlaşdırılması www.sy.edu.az portalına daxil olub, qeydiyyatdan keçməklə mümkündür.*

Anlaşılacaq bu ki, elektronlaşan qəbul insanların işini rahatlaşdıracaq. Təhsil Nazirliyinin daha bir irəli atılan addımı kimi dəyərləndiriləcək. Eyni zamanda, şəffaflığı təmin edib, neqativ hallar barədə dolaşan söhbətləri aradan qaldıracaq. Bir sözlə, elektronlaşmağa dəyər...

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Cockney culture

By Andreea Pulpea

### Activity 1

Before you read, decide which word(s) (1–4) go(es) with which meaning (a–d).

| | | | |
|---|---|---|---|
| **1.** code | **2.** community | **3.** fascinated | **4.** for a living |

**a.** a group of people living in one area
**b.** a special language in which you can send secret messages
**c.** to earn money
**d.** very interested in something

### Activity 2

Use the words to complete the sentences.

**a.** In the Second World War, an Englishman broke the German army's ………… and got their plans.
**b.** What does he do …………? He sells vegetables in the market.
**c.** I am ………… by the history of old places.
**d.** There is a big Russian ………… in South London.

In a play called *Pygmalion* written by an Irish writer, two characters meet by chance on a rainy night in London. One of them is Henry Higgins, a rich professor, who is very interested in how language works. The other one is a young woman called Eliza who is selling flowers for a living. They start talking, and Henry is fascinated by the very different way in which they speak the same language. This is mainly because Eliza is a 'cockney'.

The word 'cockney' was first used in English in 1362 to mean a small egg with a strange shape. Later, the word changed meaning and was used to describe city men – this is because the people living in villages considered them weak and similar to women. In the 19th century, a cockney was a person who lived in East London. In this community, many people were poor. Some of them were involved in crimes like pickpocketing (stealing people's wallets) so they were often in trouble with the police. This is why they invented a special language which worked like a code: they could talk to each other without the police understanding what they were saying.

For example, if Eliza's father wanted to steal someone's wallet, he could say to his friend, 'Follow this man, he has a lot of *bees and honey*' (he has a lot of *money*). Or if he wanted to talk about a beautiful woman's legs without her knowing, he was able to say, 'Look at her *bacon and eggs*!' (look at her *legs*). A phone was 'dog and bone' and 'Adam and Eve' meant 'believe'. So how about using some cockney English next time you are on the *dog and bone*?




*Bees and honey!*

### Activity 3

Read the text and decide if the sentences below are true or false.

1. Henry and Eliza were real people.
2. The police used a code to catch people who committed crimes.
3. In the past, people who lived in the countryside were called cockney.
4. The word 'cockney' is over 600 years old.
5. The writer of *Pygmalion* is not English.
6. Someone with 'bees and honey' in cockney is a poor person.
7. If a cockney person talks about 'bacon and eggs', they mean a part of the body.

### Activity 4

*Henry is* ***fascinated by*** *the very different way in which they speak the same language.*

Use the prepositions in the box to complete the sentences below.

| | | | | | |
|---|---|---|---|---|---|
| of | in | about | to | at | on |

**a.** All the students are worried ………… the exam tomorrow.
**b.** As a child, I was always scared ………… insects.
**c.** The book I am reading is very similar ………… *Pygmalion*.
**d.** John has always been very good ………… maths.
**e.** Since her divorce, Jane has not been interested ………… any other men.
**f.** Many people around the world are keen ………… learning English.

### Activity 5

How many languages are spoken in your country? Do different communities speak the same language differently? What does a person's way of speaking tell you about their life?

### Answers

**Activity 1**
1. b; 2. a; 3. d; 4. c

**Activity 2**
a. code; b. for a living; c. fascinated; d. community

**Activity 3**
1. False (F); 2. F; 3. F; 4. True (T); 5. T; 6. F; 7. T

**Activity 4**
a. about; b. of; c. to; d. at; e. in; f. on

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017

# "Çalışacağam ki, klassiklərimizin davamçılarından olum"

## *Şəbnəm Əsgərli:* "Müsabiqələrə qatıldıqca təcrübəm artır"

Sifai SƏFƏROVA

Qarşımda olduqca səmimi, bir az da dilli-dilavər qız dayanmışdı. Biz onunla tez bir zamanda dostlaşdıq. Olduqca maraqlı həmsöhbət idi. Adı Şəbnəm, soyadı isə Əsgərlidir. Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən İncəsənət Gimnaziyasında təhsil alır. Bu sənətə necə bağlandığı ilə əlaqədar fikir və düşüncələrini dinləmək arzusunda olduğumu bildirəndə xoş bir təbəssüm qondu onun üzünə və tərəddüd etmədən hələ erkən yaşlarında ikən rəsm çəkməyə necə həvəs göstərdiyi, eləcə də ötən bu illər ərzində qazandığı uğurlar barədə qürur hissi ilə danışmağa başladı.



Hələ sənətdə sözünü tam deməyən, ancaq bu əsrarəngiz rəng çalarlarının qovşaqlarında yaradıcılıq manevrləri etməklə öz xəyal dünyasının sözlə ifadə olunmayan məqamlarını fırçanın qüdrəti və istedadın məharəti ilə canlı obrazlara çevirərək tamaşaçıların müzakirəsinə təqdim etməyə canla-başla çalışan tələbə rəssam qız danışdıqca dahi rəssamların, heykəltəraşların, musiqiçilərin, bir sözlə, bütün karifeylərin həyat tarixçələrinin təkrarlandığı qətiyyətində oldum. Sanki bir tələbənin dilindən deyil, qeybdən eşidilirdi bu səs, bu tanış sözlər, bu tanış ifadələr. Sən demə tarix təkrarlandığı kimi, yaradıcı insanların həyat tarixçələri, yaradıcılıq taleləri də eynilə yeni rakursda təzələnir, təkrarlanırmış.

### Rəngli karandaşlardan özümü bir an belə ayrı hiss etmirdim

Uşaq yaşlarımdan oyuncaqlarım da elə rəngli karandaşlarım olub. Sonradan öyrəndiyimə görə elə bütün uşaqlarda erkən yaşlarında şəkil çəkməyə həvəs çox olur. Amma təvazökarlıqdan kənar olsa da deməliyəm ki, bu həvəs məndə bir balaca başqa cür baş verdi və mən rəngli karandaşlardan özümü bir an belə ayrı hiss edə bilmirdim, hətta gecələr yastığıma başımı qoyanda da karandaşlarım mənimlə yanaşı düzülməliydi balıncımın üstünə.

### Rəsm çəkməyə natürmortdan başlamışam

Bir əşyanın şəklini normal çəkənə qədər bəlkə on vərəqi korlayırdım, məqsədimə nail olandan sonra ancaq ürəyim rahatlaşırdı. Bax, beləcə, bu minvalla mən ətrafımda olan nə varsa, bitkilərin, meyvələrin, sonra isə çətin də olsa insanların rəsmlərini, portretlərini kağız üzərinə köçürməyə başladım. Bu minvalla mən rəssamlıq sənəti sahəsində qazandığım uğurlara beləcə erkən yaşlarımda tədricən imza atmağa başladım. Atam mənə o qədər rəngli karandaşlar alırdı ki! İlk öncə rəsm çəkməyə natürmortdan başlamışam. Sonra isə yavaş-yavaş Azərbaycan nağıllarındakı sevdiyim obrazları rəsmlərimdə canlandırmağa çalışırdım.

### Rəsmlərimə tamaşaçı gözü ilə baxıram

Rəsm müəllimim Vaqif Ucatay mənə rəngkarlıq sənətinin sirlərini böyük ustalıqla və əzmkarlıqla öyrədir. Bu gün mən yaradıcılıq potensialımdan məharətlə istifadə etməyə çalışıram ki, gələcəkdə mahir fırça ustalarından biri kimi tanınım, həm özüm məşhur olum, həm də müəllimimin üzünü ağ edim. Mən hər hansı bir əsəri işləyib qurtardıqdan sonra ona tamaşaçı gözü ilə də baxıram, əgər zövqümü oxşamırsa, gözüm onu tutana qədər üzərində işləməli, çatışmayan elementləri əlavə etməliyəm.Yeri gəlmişkən deyim ki, rənglər portret cizgilərində xarakteri təzahür etdirən ən mühüm amildir. Rəssamlıq peşəsi təsviri incəsənətin ən qədim növlərindən biridir. Bu peşənin sahibləri rənglərdən ustalıqla istifadə etməklə öz hisslərini, arzu və duyğularını, yaradıcılıq potensiallarını ortaya qoyurlar.

Rəsmlərdə milli üsluba, qrafikaya daha çox üstünlük verirəm və rəng çalarlarını mövzuya uyğun seçirəm. Mürəkkəb kompozisiyalar yaratmaq üçün müxtəlif üsullardan istifadə etmək hobbimdir. Həm respublika, həm də beynəlxalq rəsm müsabiqələrinə qatıldıqca təcrübəm çoxalır, necə deyərlər, püxtələşirəm.

### "Qoy həmişə günəş olsun!"

Uğurlarım artdıqca məsuliyyətim də artır. İçərişəhərdə "Nur Art House" qalereyasında Beynəlxalq Uşaqları Müdafiə Gününə həsr edilmiş "Qoy həmişə günəş olsun!" adlı uşaq və gənclərin rəsmlərindən ibarət sərginin açılışı oldu. Azərbaycan Rəssamlar İttifaqının üzvü, keçəçi-rəssam Rauf Əbdülhüseynoğlunun rəhbərlik etdiyi Uşaq yaradıcılıq qrupunun birgə layihəsi olan bu sərgidə mənim də on rəsm əsərim nümayiş olundu. Rənglərdən düzgün istifadə etməyimi alqışladılar və diplom qazandım. Münsiflər heyəti diplomu mənə təqdim edəndə sevincimin hədd-hüdudu yox idi. Böyük sənətkar Rauf Əbdülhüseynoğlundan öyrəndiyimiz sənət sirlərini rənglərin dili, qələmin, fırçanın gücü ilə ifadə edərək rəngkarlıq, qrafika və batika janrlarında əl işlərimizi tamaşaçılara nümayiş etdirdik. Rəsmlərim bir-birindən mövzuca fərqli və maraqlı idi. Daha çox isti rənglərdən istifadə etmişdim.Yaratdığım kompozisiyalarımın əksəriyyəti mövzu etibarı ilə mürəkkəb olsa da başadüşülən idi.

### "Dünyanın səsini duyaq"

"Dünyanın səsini duyaq" Beynəlxalq festival keçiriləcəyini eşitdikdə çox sevindim və festivala qatıldım. Festivala dünyanın müxtəlif ölkələrindən - Amerika Birləşmiş Ştatları, Kanada, İngiltərə, İtaliya, Çexiya, Ukrayna, Polşa, Belarus, Qazaxıstan, Bolqarıstan, Gürcüstan, İspaniya, Şimali Kipr Türk Respublikasından çoxlu sayda istedadlı uşaqlar, tələbələr qatılmışdılar. "Bir səma altında yaşayırıq, işləyirik, yaradırıq" gənc istedadların XVI beynəlxalq festivalı Ukraynanın Mijqore şəhərində keçirildi. Bu beynəlxalq festivalın təşkilatçıları UNESCO-nun nəzdində fəaliyyət göstərən Beynəlxalq Ədəbiyyat və Jurnalistika Akademiyası (Təşkilatın rəhbəri yazıçı-jurnalist, Ukraynanın əməkdar jurnalisti Vasili Fyodoroviç Tarçinetsdir), eləcə də UNESCO-nun Beynəlxalq Layihələrin Tətbiqi Mərkəzi, "NUR Art House", "Resurs" Gənclərin İnkişafı Mərkəzi İctimai birlikləri və "Educenter" təşkilatı, "Təhsil dünyası" qəzeti idilər. Festivalda istedadlı rəssamlarımız öz əl işlərini nümayiş etdirirdilər. Mənim də "İçərişəhər", "Eyfel qülləsi", "Dnepr sahilində axşam", "Bakı", "Köhnə Bakı", "Qobustan", "Karvan" və digər rəsmlərim münsiflər tərəfindən dəyərləndirildi. "Muğam" adlı rəsmim münsifləri, ümumiyyətlə, heyrətləndirdi.

### Qran-pri mükafatı qazandım

Festivalda iştirak edən müxtəlif ölkələrin rəssamları öz milli üslublarında fərqli mədəniyyət və adət-ənənələrini öz rəsmlərinin dili ilə tərənnüm etmişdilər. Sevindim ki, bu festivaldan üzüağ çıxdım və Qran-pri mükafatı aldım. Çalışacağam ki, gələcəkdə Azərbaycanın dünyaşöhrətli rəssamlarından olan Səttar Bəhlulzadənin, Tahir Salahovun, Mikayıl Abdullayevin, Toğrul Nərimanbəyovun və digər klassiklərimizin davamçılarından biri də mən olum.

*Şəbnəmin rəsmlərini seyr edərkən onun böyük istedad sahibi olduğuna məndə zərrəcə şübhə yeri qalmırdı. Bu dilli-dilavər qız qazandığı bütün uğurlara yalnız gərgin əməyi, işgüzarlığı, ən başlıcası isə bu peşəyə olan hədsiz sevgisi, məhəbbəti sayəsində imza atmışdı. Bir saat öncə rəssamlıq sənətinin sirlərinə həvəslə yiyələnməkdə davam edən bir tələbə qızla tanış olmuşdum, ancaq ayrılanda mahir peşə sahibi ilə həmsöhbət olduğuma şübhəm qalmadı.*

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6434, **Sifariş** 2721

**Məsul növbətçi:** E.Babayev

## Məzunlardan 10 nəfəri 600-dən yuxarı bal toplayıb

Şakir CƏFƏROV

2018-2019-cu tədris ilində Neftçala rayonunun 28 tam orta məktəbini 506 şagird bitirib. Onlardan 315 nəfəri ali və orta ixtisas təhsili məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edib.

Təhsil şöbəsindən verilən məlumata görə, məzunlardan 223 nəfəri test suallarını düzgün cavablandıraraq respublikanın müxtəlif təhsil ocaqlarına qəbul olub. On nəfər 600-dən yuxarı, 34 nəfər isə 500-600 arası bal toplayıb.

Rayon üzrə ən yüksək nəticəni humanitar təmayüllü "Muğan" liseyinin məzunu Hüseyn Abızadə əldə edib. O, 650 bal toplayaraq Bakı Ali Neft Məktəbinin neft- qaz mühəndisliyi fakültəsinə qəbul olub.

## 1176 şagird yerlik məktəb binası əsaslı təmir olunur

Xaçmaz şəhər 1176 şagird yerlik Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbdə əsaslı təmir işləri aparılır.

Bu barədə "Azərbaycan müəllimi"nə Xaçmaz Rayon Təhsil Şöbəsinin müdiri Mədinə Nurməmmədova məlumat verib. O, bildirib ki, 1976-cı ildə istifadəyə verilən təhsil ocağı köhnəldiyindən keyfiyyətli tədris üçün yaramırdı. Əsaslı təmirdən sonra üçmərtəbəli məktəb binası tamamilə yenidən qurularaq müasir tələblərə uyğun təhsil ocağı kimi fəaliyyətini davam etdirəcək.

Tədris ocağında fənn kabinetləri, kitabxana, kompüter otağı, akt və idman zalları fəaliyyət göstərəcək. Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də inşa olunacaq. Artıq binada söküntü işləri başa çatdırılıb. Hazırda suvaq işləri görülür, dam örtüyünün dəyişdirilməsi həyata keçirilir.

Cari ilin iyul ayından başlanılan əsaslı təmir işlərinin 2020-ci ilin mart ayına kimi başa çatdırılması nəzərdə tutulub.

Təmir işləri ilə əlaqədar məktəbin şagirdləri yeni tədris ilində müvəqqəti olaraq yaxınlıqdakı digər təhsil ocaqlarına yerləşdiriləcək.

## Etibarsız sayılır

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının** 20 fevral 2019-cu il tarixli 2 (102)-1101\19 saylı qərarına əsasən 1998-ci ldə Bakı Menecer Kolleci tərəfindən Vəliyeva Etiraf Vəli qızının adına verilmiş AZ-010155 nömrəli diplom etibarsız hesab edilsin.

**Bakı Baza Energetika Texnikumu** tərəfindən 1988-ci ldə Vahabov Arif Akif oğluna verilmiş KT-027020 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Ramazanlı Şəfəq Azad qızına verilmiş E-098242 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Fətiyeva Aida Vaqif qızına verilmiş B-301041 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (indiki ADNSU) tərəfindən 2013-cü ildə Qarayev İmran Rasim oğluna verilmiş MNB-088605 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya Universiteti** tərəfindən 2007-ci ildə Qarayev İmran Rasim oğluna verilmiş B-083811 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Bədəlova Şəfiqə Oktay qızına verilmiş A-311004 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti** tərəfindən 2008-ci ildə Şirinova (Tağıyeva ) Aynurə Mamed qızına verilmiş B-125951 nömrəli bakalvr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 85 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qurbanov Elvin Fikrət oğluna verilmiş B-495121 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2014-cü ildə Qurbanova Aytac Əli qızına verilmiş AA-046758 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli ümumi orta təhsil məktəbini 2017-ci ildə bitirmiş Muxtarov Mirsadiq Mirzamin oğluna verilmiş C-011647 nömrəli attestat və 2019-cu ildə tam orta məktəbi bitirməsi haqqında E-202812 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Qurbanova Roza Mahmud qızına verilmiş A-588411 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** N.Süleymanov adına Çinarlı qəsəbə tam orta məktəbini 2014-cü ildə bitirmiş Əzizli Əziz Gəray oğluna verilmiş A-350107 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2017-ci ildə İsgəndər Həsən Malik oğluna verilmiş A-110243 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 68 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Bağızadə Orxan Natiq oğluna verilmiş E-193702 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 41 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əlisoylu Turan Millət oğluna verilmiş B-608725 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Energetika Kolleci** tərəfindən 2015-ci ildə Əliyev Mirzə Əkbər oğluna verilmiş AA-064528 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Nazirliyin əməkdaşı

**KAMİL MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin ingilis dili müəllimi

**YULİYA CƏMİL QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## "Nəsimi ili"

Hər bir xalqın tarixində onu millətlər arasında zaman-zaman tanıdan dahi insanlar, şəxsiyyətlər olmuşdur. Bu insanlara alimlər də nümunə ola bilər, siyasətçi və hərbçilər də, yazıçı və şairlər də, öz sələflərindən ağlı, zəkası, istedadı, igidliyi və digər keyfiyyətlərinə görə çox fərqli olan digər peşə sahibləri də.

Bəzən öz dövrlərində qəbul edilməyən, ən yaxşı halda laqeydlik, ən pis halda isə tənə, zülm və işgəncələrə məruz qalan belə insanlar nə yaxşı ki, zaman keçdikcə öz layiqli qiymətlərini alır və nəinki öz ölkələrində, hətta dünya miqyasında tanınırlar. Hazırda Azərbaycan xalqının mənəviyyat xəzinəsində öz layiqli yerini tutan, Azərbaycan ədəbiyyatı tarixində fəlsəfi poeziyanın banisi kimi şərəfli bir mövqeyi olan Seyid İmadəddin Nəsimi də yaşadığı dövrdə lazımınca dərk edilmədiyindən çox əziyyət və məşəqqətlərə dözən şəxsiyyətlərdən biri olmuşdur.

Nəsimi ibrətamiz həyat və yaradıcılıq yolu keçmişdir. Daha çox hürufi məsləkli şair kimi tanınan ədib yaradıcılığının birinci mərhələsində sufi ideologiyasına uyğun əsərlər yazmışdır. Şairin əsərlərinin tədqiqi göstərir ki, onun əsərlərində bir qayda olaraq kamil insan konsepsiyası təqdim edilir və eyni zamanda insanı alçaldan müharibələrə, bəzi ziyankar, məsləksiz din xadimlərinə kəskin etiraz ifadə olunur. Dövründə çoxları tərəfindən qəbul olunmayan Nəsimini indi dünya poeziyasının ən kamil sənətkarlarından biri hesab edirlər. Nəsiminin vətəni Azərbaycanda onu uşaqdan böyüyə hamı tanıyır və sevir, vaxtaşırı olaraq əsərləri nəfis şəkildə çap olunur, şairin əzəmətli heykəli paytaxt Bakı şəhərində sakinləri və respublikaya gələn qonaqları vüqarla salamlayır.



# Okeanın o tayında Nəsimi sevgisi



**Asudə ABDULLAYEVA,**
*Lənkəran Dövlət Universiteti Xarici dillər kafedrasının baş müəllimi*

## Amerikalı professor dahi Azərbaycan şairinin qəzəlini ingilis dilində əzbər söylədi

Təsadüfi deyil ki, Azərbaycanın ən böyük elm ocağı olan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu da məhz dahi şairin adını daşıyır.

Fəxr ediləsi hallardan biri də odur ki, 1973-cü ildə Nəsiminin anadan olmasının 600 illiyi UNESKO tərəfindən təntənəli şəkildə qeyd olunmuşdur.

Amma bu yazını yazmaqda məqsədim heç də Nəsimi haqda təzə fikir söyləmək deyil. Çünki Nəsiminin həyat və yaradıcılığı barədə istər öz dəyərli ziyalılarımız, istərsə də digər xalqların ədəbiyyatçıları çox yazıb, əsərləri layiqincə tədqiq və təhlil edilib, müxtəlif dillərə tərcümə olunub və yəqin ki, hələ uzun müddət bu işlər davam edəcək.

Məqsədim Azərbaycanın dünya şöhrətli şair oğlu İ.Nəsiminin doğrudan da dünyada tanınıb sevilməsinin əyani şahidi olduğum kiçik bir epizodu oxucularla bölüşməkdir.

2008-ci ilin dekabr ayında ABŞ səfirliyinin və Amerika Dövlət Departamentinin keçmiş Sovet ölkələrindən olan universitet müəllimləri arasında keçirdiyi JFDP təhsil müsabiqəsinin Azərbaycan üzrə seçilmiş yeddi qalibi ilə birlikdə müxtəlif universitetlərində altı aylıq təcrübə keçməkdən ötrü bu ölkəyə yola düşdük.

Proqram çərçivəsində biz Amerika təhsil sistemi ilə yaxından tanış olacaq və bu məqsədlə müxtəlif universitetlərdə dərslərdə iştirak edəcək, müəllim və tələbələrlə fikir mübadiləsi aparacaq, istədiyimiz fənn üzrə müştərək dərs keçəcək, yerli cəmiyyət üzvləri ilə qaynayıb qarışacaq və Azərbaycanın mədəniyyəti, əsasən də təhsili ba-

**Professor Jef Davis: Mən istərdim ki, təqdimatçı dahi Azərbaycan şairləri Nizami, Füzuli, Nəsimi haqda məlumat verəydi. Bu şairlərin əsərləri dünyada tanınır və yüksək qiymətləndirilir. Mən hətta Nəsiminin bir şeirini də əzbər bilirəm, dedi və bizim təkidimizlə sevdiyi qəzəli ingilis dilində söylədi.**

rədə təqdimatlar keçirəcəkdik.

Əvvəlcə bir ay müddətində bütün respublikalardan olan universitet müəllimləri ilə birlikdə Kanzas universitetində (KU) orientasiya proqramında iştirak etdik. Daha sonra isə ayrı-ayrı ştatlara yola düşdük.

Mən mübadilə proqramını Ohayo ştatının on üç min tələbəsi olan Yanqstaun Dövlət Universitetində (Youngstown State University- YSU) yerinə yetirməli oldum. Harvard Universitetində isə üç günlük konfransda iştirak etdim.

Proqramın elə ilk günlərində Azərbaycanı tanıtmaq məqsədilə təqdimata hazırlaşdım və koordinatorlarım - Beynəlxalq Tələbə Cəmiyyətinin sədri professor Jef Davis və Tətbiqi Dilçilikdən dərs deyən professor Barbara Nykiel - Herbertlə birlikdə təqdimat gününü təyin etdik.

45-50 nəfərdən ibarət təqdimat iştirakçıları arasında müxtəlif millətlərdən olan professor və müəllimlər var idi. Mən slaydlarla Azərbaycanın təhsili, mədəniyyəti, milli adət-ənənələri və ümumi yaşayış tərzi, Dağlıq Qarabağ barədə məlumat verdim.

Təqdimatdan sonra əvvəlcə Xarici dillər kafedrasının müdiri, professor Shearlie Furnish çıxış edib təqdimatı çox bəyəndiyini dedi və bunu tələbələr üçün də təşkil etməyimi məsləhət bildi. Müəllimlər də çıxış edərək öz fikirlərini bildirdilər. Bəziləri Azərbaycan haqda məlumatlarının olmaması, digərləri az məlumatlı olmaları barədə danışdılar və təqdimatdan çox şey öyrəndiklərini vurğuladılar.

Müəllimlərdən biri hətta bu qədər ingilisdilli professor və müəllim heyəti qarşısında mənim yarım saat çıxış etməyə cəsarət etdiyimə heyran qaldığını da gizlətmədi.

Təqdimat boyu gah video, gah da şəkillər çəkərək Proqramı Bakı ofisinə göndərməklə məşğul olan kooordinatorum professor Jef Davis isə məni əməlli başlı təəccübləndirdi.

Professor Jef Davis də əvvəlcə maraqlı təqdimata görə öz təşəkkürünü bildirdi, eyni zamanda təqdimatın bir qədər qısa olmasına irad tutaraq dedi ki, Abdullayeva bəlkə də vaxtın azlığından Azərbaycanın bir çox görkəmli şəxsiyyətlərinin adını çəkmədi. Mən istərdim ki, təqdimatçı dahi Azərbaycan şairləri Nizami, Füzuli, Nəsimi haqda məlumat verəydi. Bu şairlərin əsərləri dünyada tanınır və yüksək qiymətləndirilir. O, daha sonra Azərbaycanın bir çox məşhur bəstəkarlarının da adlarını çəkdi, mərhum cazmen Vaqif Mustafazadənin və onun qızı Əzizənin sənəti ilə yaxından tanış olduğunu dedi.

Mən, əlbəttə ki, Azərbaycandan çox-çox uzaqda, dünyanın o başında bir əcnəbinin dilindən bu sözləri eşitdiyimə görə mütəəssir olmuşdum. Amma aydınlıq üçün bildirdim ki, Azərbaycanın fəxr ediləsi görkəmli şəxsiyyətləri əlbəttə ki, çoxdur. Lakin yarım saata bir ölkəylə ümumi tanışlıq bu qədər ancaq ola bilərdi. Onu da əlavə etdim ki, əgər vaxt təyin edə bilsələr geniş təqdimat edərik.

Marağımı isə gizlətmədim.

- Siz bunları necə tanıyırsınız? - deyə soruşdum. O isə, "Mən hətta Nəsiminin bir şeirini də əzbər bilirəm", dedi və bizim təkidimizlə sevdiyi qəzəli ingilis dilində söylədi.

Jefin bu çıxışı təqdimata və eləcə də Azərbaycanın bir qədər də ətraflı tanınmasına əlbəttə ki, əlavə rəng qatdı və alqışlara səbəb oldu.

Bir azərbaycanlı şairin okeanın o üzündə bu qədər yaxından tanınması və sevilə - sevilə qiraət edilməsi onun dünyəvi şair olmasının əyani sübutu deyildimi?

Amerikada olduğum müddətdə rastlaşdığım bir faktı da qeyd etmək məncə yerinə düşər. Proqrama Tacikistan Dövlət Universitetindən qoşulan Farxunda Neqmetzadə adlı bir iştirakçının elmi işi Azərbaycanın digər bir dahi şairi Nizaminin yaradıcılığına həsr olunmuşdu. Farxunda xanım bizim birlikdə olmağımızdan istifadə edərək şairin dövrü, əsərlərinin Azərbaycanda tədqiqi və şairlə bağlı digər məsələlər barədə hər dəfə bizdən nəsə soruşduqda və biz hər dəfə ona nəsə bir məlumat verdikdə əlbəttə ki, çox böyük qürur hissi keçirirdik.

Bunları deməkdə məqsədim odur ki, xüsusilə vətəndən kənarda mənsub olduğun ölkəni dünyada tanıdan hər bir soydaşının müxtəlif millətlər tərəfindən bu cür sevilməsinin və onların gördükləri işlərin yüksək səviyyədə tədqiq olunmasının şahidi olmaq həqiqətən qürurverici hisslərdir.

# Müəllim-şagird-valideyn münasibətlərinin mərkəzində

## Kurikulumlar məhsuldar fəaliyyəti tənzimləyir

**Sevinc ABDULLAYEVA**

Müstəqilliyimizin və dövlətimizin qarşıya qoydugu mühüm şərtlərindən biri mükəmməl təhsil sisteminə malik olmaqdır. Respublikamızda həyata keçirilən təhsil islahatlarının məqsədi yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. İlk növbədə müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, ideyaca saf, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətləri özündə cəmləşdirməlidir.

Peşəsində yaxşı nəticələr əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Hesab edirəm ki, müəllim bütün hallarda, xüsusən "müəllim - şagird" münasibətlərinin qurulmasında pedaqoji taktı - nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır.

Xatırladım ki, 2008-2009-cu tədris ilindən ölkəmizdə yeni kurikulumların tətbiqinə başlanılıb. 1999-cu ildə təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın tərkib hissəsi olan kurikulum islahatı bu gün də mərhələli şəkildə həyata keçirilir. Yaxın keçmişə nəzər saldıqda görürük ki, bu addım Azərbaycan təhsilində ilk nəticəyönümlü kurikulumların tətbiqi kimi mühüm əhəmiyyət daşıyır.

Yeni kurikulumlar müəllim fəaliyyətinin idarə olunması, dəyərləndirilməsi baxımından da geniş əhəmiyyət daşıyır. Onlara əsasən işini quran müəllimlər özlərinin tədris fəaliyyətinin layihəsini hazırlamaqda, plan qurmaqda, fəaliyyət məqsədlərini həyata keçirməkdə, eləcə də texnologiyalar seçməkdə, yaxud onları müvafiq qaydada hazırlamaqda daha müstəqil olurlar.

Kurikulumların tələbinə əsasən valideyn və məktəb arasında münasibətlərin yenidən qurulması kimi mühüm pedaqoji hadisənin verilməsi müşahidə olunur. Maraqlı olan əsas tərəflərdən biri kimi onlar təhsilin fəal iştirakçısına çevrilməklə məktəbin təhsil mühitinə demokratik bir ab-hava gətirirlər. Daha konkret mənada kurikulumlar şagird-müəllim-valideyn əlaqələrinin mərkəzində dayanaraq onların məhsuldar fəaliyyətini tənzimləyir.

Məhz universal kurikulum platformasının müəllim-şagird münasibətlərinə müsbət təsirinin nəticəsidir ki, müəllim şagirdi ilə dost münasibəti qura və ona öz dəyərli məsləhətlərini verə bilir, həmçinin onlarla daha çox vaxt keçirərək müəyyən tədbirlər gerçəkləşdirir. Misal olaraq onu qeyd edə bilərəm ki, hal-hazırda müəllimlik fəaliyyətimi davam etdirdiyim məktəbdə sinif rəhbəri kimi də çalışıram. Rəhbəri olduğum siniflə dolğun və maarifləndirici bir çox tədbirlər keçirmişik. O tədbirlərdən sadəcə birini sizinlə paylaşmaq istəyirəm. 2017-ci ilin mart ayında keçirdiyimiz tədbirdə şagirdlər xalqımızın milli bayramı olan Novruzun tarixi, ənənələri barədə tədbir iştirakçılarına, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrinə ingilis dilində məlumat verib, intellektual müsabiqələr, mahnılar, şeirlər, rəqslər nümayiş olunub.

Sözügedən tədbirə şagirdlərin təşəbbüsü və məktəbimizin valideyin komitəsi sədrinin dəvəti ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilindən (Ombudsmandan), British Council-dan, Məktəb İcmalarından, Türkiyə səfirliyindən dəvət olunmuş qonaqların tədbir haqqındakı yüksək fikirləri şagirdlərimizi daha da ruhlandırıb və təhsildə yeni nailiyyətlər qazanmaq üçün əsl stimul olub.

Deməli, universal kurikulum platformasının ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin inkişafında müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olması, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılması və problemlərin həllinə yönəlməsi qənaətinə gələ bilərik.

Onu da qeyd edim ki, kurikulumlar sadəcə bizim ölkədə deyil, həmçinin, dünyanın inkişaf etmiş ölkələrində uğurla tətbiq olunur və müsbət nəticələr verir. Bir sıra amillərlə bərabər burada ən mühüm məsələ kurikulumun tətbiqinə bilavasitə məsul olan müəllimlərin yetişdirilməsi və ixtisasartırması, onların mükəmməl hazırlığının təmin olunmasıdır.

Bir zamanlar şagirdi olduğum məktəbdə bu gün müəllim olaraq çalışmaq, on bir il eyni parta arxasında əyləşdiyim, eyni sinif otağını paylaşdığım sinif yoldaşlarımın övladlarının müəllimi olmaq, düşünürəm ki, bu həyatda qazandığım ən böyük nailiyyətlərdən biridir. O nailiyyət, o qürur ki, onu sözlərlə ifadə etmək mümkün deyil.

Dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev müəllim əməyini həmişə yüksək qiymətləndirirdi:

"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbrlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".

Bəli, cəmiyyətin, millətin gələcəyi müəllimin əlindədir. Elə buna görə də öz işinin öhdəsindən uğurla və şərəflə gəlmək üçün müəllim əsl mənada şəxsiyyət olmalı, özündə müsbət keyfiyyətlər formalaşdırmalıdır...